**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**



***F. Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi ilə əlaqədar hazırlanmış elmi metodiki vəsait.***

# *Gənc nəslin mənəvi tərbiyəsi sahəsində xidmətlər göstərən 50 yaşlı kitabxana*

**Bakı-2015**

## Tərtibçidən

Kitabxanalar mövcud dünya mədəniyyətlərinin izləri hesab edilən yazılı sənədləri mühafizə edən saxlayıcılardır. Bu yazılı mənbələr bəşəriyyətin elm və yaradıcılıq nailiyyətləri ilə yanaşı, tarix və cəmiyyətin qarşılıqlı əlaqələrini də əks etdirir. Fikirləşdiklərimiz, yaratdıqlarımız və kəşf etdiklərimizdən ibarət olan bu materiallar keçmişin gələcəyə hədiyyəsi kimi çatdırılması üçün kitabxana fondlarında və arxivlərdə mühafizə olunur. Kövrək davamsız və bəzən çox zərif olan bu materialların mühafizəsi üçün məsuliyyət biz kitabxanaçıların üzərinə düşür. Çünki, kitabxana fondu 100000 nüsxələrlə sənədləri əhatə edən zəngin bilik xəzinəsi olmaqla minlərlə oxucunun əsl mütaliə mənbəyinə verilmiş sərvətdir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutdur."

Bu gün informasiya əsri adlandırılan XXI əsr əsas məlumat mənbəyi olan kitabxanaların qarşısında keyfiyyətcə yeni vəzifələr qoyur. Müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmalıdırlar. Bu baxımdan Azərbaycanda kitabxana işinin inkişafında yeni mərhələyə başlanğıc verən mühüm sənədlər Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (20 aprel 2007) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın (6 oktyabr 2008) təsdiq edilməsi haqqındakı sərəncamlarının həyata keçirilməsi kitabxana quruculuğunun Azərbaycan dövləti tərəfindən prioritet sahə kimi müəyyənləşdirilməsini təsdiq edir. Azərbaycanda informasiya texnologiyalarının yaradılmasına və eyni zamanda informasiya texnologiyalarının infrastrukturunun qurulmasına böyük əhəmiyyət verilir. Ölkəmizdə dövlət səviyyəsində "Elektron hökumət", "Elektron məktəb", "Elektron kitabxana" kimi innovativ proqramlar artıq geniş miqyasda həyata keçirilməkdədir. Bəli, bu gün kitabxana insanların informasiya təlabatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. Kitabxana bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir.

F. Köçərli adına 50 yaşlı RUK- sı olaraq bu gün bizim də üzərimizə çox böyük məsuliyyət düşür və mən inanıram ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə zəhmətsevər kollektivimiz bu işin öhdəsindən layiqincə gələcəkdir.

# *F. Köçərli adına Respublika Uşaq Kitabxanası 50 ildə*

Ölkəmiz qədim dövrlərdən başlayaraq milli - mənəvi sərvətləri, xüsusilə kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Belə kitabxanalardan biri də xalqımızın gələcəyi olan uşaqlara kitabxana xidmətinin təşkili sahəsində böyük təcrübəsi və xidmətləri olan, respublikada uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F. Köçərli adına respublika Uşaq Kitabxanasıdır. Kitabxana öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında müdrik kəlamını rəhbər tutmuş, öz işini bu kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir.

Heydər Əliyev deyir: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Məlum olduğu kimi, son illər kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi - texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi, dünya kitabxanaları ilə faydalı əlaqələrin qurulması istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər görülür.



F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır. 1965-ci ildə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana



gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem

kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradıldı. Bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanıldı. Fonddan yalnız kitabxananın öz işçiləri deyil, həmçinin respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları fəal istifadə edirdi. Onun əsasında rayon uşaq kitabxanalarına hər il orta hesabla 140-150 yazılı arayış göndərilirdi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod və formalar tətbiq olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti 6 oktyabr 2008-ci il taixində "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzalanmışdır. Azərbaycanda kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verən bu mühüm sənəd ölkə Prezidentinin bütövlükdə mədəniyyətə və mədəni dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsidir. Bu, həm də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mədəni quruculuq siyasətinin uğurla davam etdirilməsinin göstəricisidir.



Müstəqillik illərində uşaqlara kitabxana – informasiya xidmətini daha da yaxşılaşdırmağı, informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan F. Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivi kitabxana işinin informasiyalaşdırılması və kitabxananın informasiya texnologiyası ilə təmin edilməsi sahəsində müəyyən uğurlar qazanmışdır. Belə ki, kitabxanaya xeyli miqdarda kompüter, elektron məlumat vasitələri, texniki avadanlıq alınmış və bu vasitələrin kitabxana işinə tətbiq edilməsi kitabxana işini qismən də olsa kompüterləşdirmişdir. Hazırda fondunda 270000 nüsxə ədəbiyyat olan kitabxananın ən böyük nailiyyətlərindən biri uşaqların istifadəsi üçün kompüter zallarının açılması olmuşdur. Çünki uşaqlar və yeniyetmələrin mütaliəsi, dünyagörüşünün formalaşması, qlobal informasiya mühiti ilə

səmərəli təması proseslərinin uğurla nəticələnməsi Azərbaycan dövlətinin kitabxana-informasiya sahəsində gələcəyə yönəlmiş inkişaf konsepsiyasının tərkib hissələrindən biridir. Müasir kitab və onun mütaliə mədəniyyətinin ziddiyyətli olduğu bir zamanda yaşayırıq. Bir tərəfdən, uşaq ədəbiyyatı nümunələrinin çap variantlarının oxucularının hiss olunacaq dərəcədə azalmagına, digər tərəfdən elektron formatda uşaq mütaliəsi üçün yazılmış mətnlərin keyfiyyəti və onlardan istifadə imkanlarının genişlənməsinə tələbat artmaqdadır. Dövlət Proqramı kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, respublikada kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması, kitabxanaların kompyuter və informasiya-proqram təminatı, Azərbaycan Respublikasının milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorunması, gələcək nəsillərə çatdırılması, kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi və s. məsələləri əhatə edir.

**Gənc nəslin mənəvi tərbiyəsi sahəsində kitabxanaların əsas vəzifələri**

Gənc nəslin mənəvi tərbiyəsi sahəsində kitabxanalrın əsas vəzifələri onların əsas fəaliyyət istiqamətlərini müəyyən edir:

- Mədəni-tarixi-mənəvi dəyərlər əsasında uşaqların şüurunda öz vətəni ilə qürur duymaq, fəxr etmək hissinin aşılanması;
- Uşaqlarda fəal həyat mövqeyi tərbiyə etmək;
- Öz ölkəsinə, xalqına gərəkli olmaq duyğusunu tərbiyə etmək;
- Bədii, elmi-kütləvi nəşrlərin, audio-video materialların tam spektrindən istifadə etmək;
- Təbiət, canlılar və bitkilər aləmi haqqında biliklər təbliğ etməklə ekoloji tərbiyəni aşılamaq;
- Doğma ana dilinə, ədəbiyyata, mədəniyyətə sevgi və onları yaşatmaq ;
- Uşaq və yeniyetmələrin informasiya mədəniyyətinin yüksəlməsinə yardım göstərməli;
- Kompüter əsrinin nəslinə çevrilən azərbaycanlı uşaq və yeniyetmələr üçün onların mənəvi-əxlaqi-hüquqi tərbiyəsini təmin edən kibermühitin yaradılmasına çalışmalı;
- Böyüməkdə olan nəslin sosial-iqtisadi və ictimai həyata adaptasiyasına yardım göstərməli;
- Günün və cəmiyyətin tələbləri səviyyəsində fəaliyyət göstərməlidir;

Kitabxanaların bu sahədə missiyası alidir – çünki cəmiyyətin mənəvi potensialı kimi uşaqların mənəvi dünyasını yaxşı mənada istiqamətləndirməyə yardım göstərir. Kitabxana əməkdaşlarının uşaqları elektron informasiya aləmi ilə səmərəli pedoqoji-psixoloji istiqamətlərdə heyrətləndirməsi, kitab aləmi ilə təmasdan zövq almasına yardım etməsi, uşaq fikrinin, fantaziyasının, təxəyyülünün inkişafına xidmət etməsi vətəndaş cəmiyyəti quruculuğuna yararlı insanların tərbiyəsinə yardım

etməsi deməkdir. Bütün bunlar kitabxanaçıdan bilikli və yüksək səviyyəli peşəkar olmağı, informasiya kommunikasiya texnologiyalarından istifadə etməyi, müasir dövrlə ayaqlaşmağı bacarmağı tələb edir. Zamanın tələbinə uyğun olaraq kitabxanadaxili ənənəvi texnologiyalar və kitabxanaların əhaliyə xidmət formalarının ciddi surətdə dəyişdirilməsi mərhələsinə başlanmışdır. Yeni informasiya texnologiyaları hər bir kitabxanaçının qarşısında çox geniş imkanlar açmışdır. İndi müasir kitabxanaçı təkcə bədii ədəbiyyat, elmi çap məhsulları və informasiya ilə əlaqədar oxucu tələbatının bilicisi deyil, həm də informasiya mənbələrinin yaradılması və istifadəsi texnologiyası sahəsində mütəxəssis, İnternet elektron şəbəkədə naviqator, informasiya-kitabxana sferasında menecer, kitab nəşriyyatı bazarının aktiv subyektidir. Kitabxanaya oxucu cəlb etmək üçün kitabxanaçı kitabxananın daxili tərtibatına xüsusi fikir verməlidir. Çünki müasir dövrdə kitabxanaların zövqlə tərtibatı oxucuların kitabxanaya cəlb edilməsinə təsir göstərən əsas amillərdən biridir. Bu işdə birinci şərt - binanın estetik görünüşü, məqsədəuyğun avadanlıq və tərtibatın təmin edilməsidir. Kitabxana haqqında daha canlı təsəvvür yaratmaq üçün kitabxanamızın vestibülündə vacib sayılan müxtəlif məzmunlu reklamlardan istifadə olunur.

Bu reklamda kitabxananın xidmət xüsusiyyətləri, fəaliyyət göstərən dərnəklər, maraq klubları haqqında məlumatlar verilir. Çünki kitabxana vətəndaşların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, fasiləsiz təhsilin inkişafında imkanlı zəmin yaradan, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. 28 dekabr 1988-ci ildə qəbul olunmuş “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda kitabxana informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi müəyyənləşdirilir. Beləliklə kitabxana bitib tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazalarının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir. 60-cı-illərin əvvəllərində Azərbaycanda 88 müstəqil uşaq kitabxanası var idi. Bakı şəhərində 22 müstəqil uşaq kitabxanası fəaliyyət göstərirdi. 60-cı illərin birinci yarısında uşaq kitabxanalarına metodik rəhbərlik mahiyyət etibarı ilə vahid və bütöv sistem kimi təşəkkül tapmamışdı. Bu baxımdan 1965 - ci ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Görkəmli alim və marifçi F. Köçərlinin



adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Respublikada uşaq kitabxanalarının fəaliyyətini metodik cəhətdən tənzimləyən mərkəzin yaradılması uşaqlara xidmət edən kitabxanaların təşkilati metodik problemlərinin vahid qaydada həllini təmin etməkdən, eyni zamanda ayrı-ayrı kitabxanaların qabaqcılları səviyyəsinə qaldırılmasına kömək etməkdən ibarət idi.







Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının



elmi-metodik fəaliyyətinin kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradılmışdır. 1974 - cü ildə 2000 nüsxədən artıq çap vahidini əks etdirən bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanılmışdı. Bu fonddan kitabxananın öz işçiləri, Bakı şəhərinin bütün uşaq kitabxanaları fəal istifadə edirdilər. Onun əsasında kitabxana işçilərinə hər il orta hesabla 140 - 150 yazılı və şifahi arayış və tövsiyə verilirdi. ”Uşaq kitabxanasının fond və kataloqlarının kitabxana biblioqrafiya təsnifat cədvəllərinə keçirilməsi” (1931), ”Uşaq kitabxanalarının fəaliyyətinin icmalı” (1969), ”Tövsiyə ədəbiyyat göstəricisi” (1969), ”Azərbaycan uşaq ədəbiyyatı” (1970), ”Uşaqların yaxın dostu” (1970), ”Doğma Respublikamızı öyrənək” (1971),

”Kitabxana işçisinə kömək” (1972), ”Oxuyucuların mütaliəsinə rəhbərlik” (1972), ”Yayda nə oxumalı” (1972), ”Gözəlliyə doğru” (1973), ”Uşaq kitabxanasında kataloq və kartotekaların tərtibi” (1976), ”Uşaq və məktəb kitabxanalarında şagirdlər arasında estetik tərbiyə işinin aparılması” (1978),



”Məzmunca əhəmiyyətini itirmiş və köhnəlib sıradan çıxmış nəşrlərin və materiallarin kitabxanalardan və məlumat informasiya fondlarından çıxarılması qaydası haqqında” (1978), ”İdman bizim dostumuzdur” (1980), ”El bilir ki sən mənimsən” (1980), ”Kütləvi kitabxanalarda çap əsərlərinin biblioqrafik təsvirinin öyrənilməsi və tətbiqinə dair metodik məsləhətlər” (1981), ”Hüquqi biliklərin uşaqlar arasında təbliği” (1982), ”Kiçik yaşlı məktəblilər arasında ilk mənəvi tərbiyənin formalaşması” (1983), ”M. Y. Lermantovun anadan olmasının 170 illiyi münasibətilə” (1984), ”Oxucuların əmək tərbiyəsi (1984), ”Məktəbli oxucular arasında mülki müdafiə biliklərinin təbliği” (1984), ”Teymur Elçin” (1985), ”Kütləvi kitabxanalar üçün kitabxana-biblioqrafiya təsnifatı cədvəlləri üzrə qurulmuş sistemli kataloqun tərtibi” (1985), ”Sov. İkp Mk-nın “ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri” qərarı ilə əlaqədar 7-9-cu sinif şagirdlərinin peşə yönümünün düzgün istiqamətləndirilməsində uşaq və məktəb kitabxanalarının işi” (1985), ”Məktəbli oxuculara texnika haqqında” (1986), ”Ümumittifaq uşaq və gənclər kitabı həftəsi” (1987), ”Ümumittifaq uşaq və gənclər kitabı həftəsi” (1988), ”Müəllim-günəşdir” (1988), ”Uşaq kitabxanaları və məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsi” (1988), ”Musiqi və sən” (1988), ”Salam doğma məktəb” (1988), ”Bizim yubilyarlar” (1989), ”Kitabın yaranma tarixinə dair nə bilirsiniz?” (1989), ”Möcüzələr aləmində” (1990), ”Nizami Gəncəvi 850” (1990), ”Uşaq mütaliəsinə rəhbərliyin bəzi xüsusiyyətləri” (1990), ”Hikmət nəğməsi” N. Gəncəvi 850 (1991), ”Gəl, gəl, a yaz günləri” (1991), ”Müasir dövr və gənc oxuyuculara kitabxana-biblioqrafiya xidmətinin təkmilləşdirilməsi yolları” (1991),




”Doğma vətənimizi öyrənək” (1991), ”Müasir dövrdə uşaq kitabxanalarında mütaliə və xidmət işinin metodikası” (1992), ”Uşaq ədəbiyyatı biblioqrafiyası” (1992), ”İlin əziz günləri” (1992), ”Mənəvi irsimizdən” (1993), ”Müasir dövrdə uşaq kitabxanalarında mütaliə və xidmət işinin metodikası” (1993), ”M. F. Axundov adına Azərbaycan Respublika dövlət kitabxanasının tarixinə dair materiallar məcmuəsi” 70 il xalqın xidmətində (1993), ”Uzaq dünyalardan gələn səs” Emin Mahmudov 70 (1994), ”İncə duyğular, dərin mənalar şairi” Bəxtiyar Vahabzadə 70 (1995), ”Ana torpağla bağlı sənətkar” Osman Sarıvəlli 90 (1995), ”Xocalı faciəsi” (1995), ”Uşaq kitabxanalarının məktəblilərin tədris-tərbiyə prosesinə köməyi” (1995), ”Şairlərin şəhriyarı-Şəhriyar” Məmmədhüseyn Şəhriyar 90 (1995), ”Mirzə Qədim İrəvan 170” (1995), ”Bir ömrün yolları” Xalidə Hasilova 75 (1995), ”Unudulmaz illər” Alman faşizmi uğrunda qələbənin 50 illiyi (1995),”İbn Sina 1015” (1995), ”Aşıq Nəcəf 90” (1995), ”Mücirəddin Beyləqani 860” (1995), ”Aləmdə səsim var” S. Ə. Şirvani 160 (1995), ”Nə yaxşı ki, dünyada Səməd Vurğun var! Səməd Vurğun 90 (1996), ”Kiçik yaşlı məktəblilərin mütaliə mədəniyyəti” (1996), ”Odlu qəlbin duyğuları” S. Rüstəm 90 (1996), ”Qoy hər il beynəlxalq uşaq ili olsun” 1 iyun uşaqların beynəlxalq müdafiə günü münasibətilə (1996), ”Güneyli, Quzeyli şair” Balaş Azəroğlu 75 (1996), ”Hamımızın sevimlisi” Cahangir Cahangirov 75 (1996),



”Bizə kitab gəlib” (1996), ”Uşaq dünyasının səyyahı” Tofiq Mahmud 65 (1997), ”Gözəl hekayələr ustası” Y. V. Çəmənzəminli 110 (1997), ”Nəğməli ömür” Tofiq Quliyev 80 (1997), ”Yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizədə uşaq kitabxanalarının vəzifələri” (1997), ”Qüdrətli gülüş ustası” Nəsibə Zeynalova (1997), ”Həyatımızın əsas qanunu” Noyabrın 12-si (1997), ”Tükənməz ilham” Mirvarid Dilbazi 85 (1997), ”Ağasadıq Gəraybəyli 100” (1997), ”Nəğməkar şair” Məmməd Rahim 90 (1997), ”Bənzərəm bir qocaman dağa ki...”, M. Ə. Sabir 135 (1997), ”Azərbaycan Respublikası elmi pedoqoji kitabxanası” (1997), ”Lirik duyğular nəğməkarı” Əhməd Cəmil 85 (1998),

”Təkraredilməz sənətkar” Qara Qarayev 80 (1998), ”Kiçik yaşlılara ensiklopedik ədəbiyyatın təbliği (1998),” Balalara hədiyyənin müəllifi” F. Köçərli 135 (1998), ”Ürəklərdə yaşayan sənətkar” Ənvər Məmmədxanlı 85 (1998), “Mən bir susmaz duyğuyam ki, ürəklərdə gəzərəm” C. Cabbarlı 100 (1999),”Uşaqların sevimlisi” Abbas Səhhət 125 (1999), ”Bizim Həbibə” Həbibə Zeynalova 80 (1999), ”Nəğmələrdə yaşayan şair” Tofiq Mütəllibov 70 (1999), ”Uşaq yazıçısı A. Qaydar” Arkadi Qaydar 90 (1999), ”Qələm sahibi, təfəkkür yiyəsi” İsmayıl Şıxlı 80 (1999), ”Uşaqların sevimlisi” Xanımana Əlibəyli 75 (1999), ”Uşaqların böyük dostu” Teymur Elçin 75 (1999), ”Rus poeziyasının günəşi” A. S. Puşkin 200 (1999), ”Yaxşılar unudulmur” Əmrah Əmrahov 75 (1999), ”Məktəbli oxucuların milli müstəqillik dünyagörüşünün formalaşmasında “Kitabi-Dədə Qorqud” dastanının təbliğinin rolu” (2000) və s.



60-70-ci illərdə Azərbaycanda uşaq kitabxanalarının metodik təminatının vəziyyətini yekunlaşdırarkən qeyd etmək istərdik ki, ümumiyyətlə hər bir kitabxana şəbəkəsində təşkilati – metodik işlərin nəticəsi müvafiq şəbəkədə oxuculara xidmət işinin səmərəliliyi ilə ölçülür. Əvvəllər Respublika Maarif Nazirliyində və Nazirlər Soveti yanında Mədəni Maarif İşləri Komitəsində metodist kimi çalışmış, 1959 - 1965 - ci illərdə M. F. Axundov adına Respublika Dövlət Kitabxanasının elmi – metodik şöbəsinin müdiri vəzifəsində işləmiş təcrübəli kitabxanaşünas, respublikanın əməkdar kitabxanaçısı Həsənağa Rzaquliyev şöbənin rəhbəri vəzifəsinə dəvət edilmişdir. Respublika Uşaq Kitabxanası öz fəaliyyətinin ilk illərində şəhər və rayon mərkəzi uşaq kitabxanalarının ayrı - ayrı rejionlar üzrə metodik mərkəz kimi formalaşmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə respublika kitabxanasının metodistləri və təcrübəli əməkdaşları şəhərlərə və rayon mərkəzlərinə çoxsaylı ezamiyyələr təşkil edərək uşaqlara kitabxana xidmətinin metodik təminatının dayaq bazalarını yaratmağa başladılar. Yalnız 1966 - cı ildə belə ezamiyyələrlə respublikanın 24 rayonu əhatə olunmuş, Ağcabədi, Ağsu, Astara, Bərdə, Quba, Qubadlı, Dəvəçi, Yevlax, Zəngilan, Zərdab, Kəlbəcər, Masallı, Mingəçevir, Naxçıvan, Şəki, Ucar, Xaçmaz, Şamaxı və s. rayon və şəhərlərdə dayaq bazaları yaradılmışdı.

Eyni zamanda həmin yerlərdə zona kitabxana işçilərinin seminar – müşavirəsi təşkil edilir və konkret olaraq "Mərkəzi rayon (şəhər) uşaq kitabxanası bölgədə uşaqlara kitabxana xidmətinin metodik mərkəzi kimi formalaşması vəzifələri" məsələsi müzakirə edilirdi. Geniş kitabxana ictimaiyyətinin iştirakı ilə keçirilən seminar – müşavirələrdə Respublika Uşaq Kitabxanasının əməkdaşları uşaqlara kitabxana xidmətinin metodik təminatının forma və metodları, metodik işin təşkili, qabaqcıl təcrübənin ümumiləşdirilməsi, uşaq kitabxanası işçilərinin ixtisasının artırılması və s. məsələlərə dair məruzə və çıxışlar edir, kitabxana işçilərinə yerlərdə əməli köməklik göstərir və təlimatlar verirdilər. 1966 - 1970 - ci illərdə bu kimi seminar – müşavirələr 12 şəhər və rayonda Bakı, Şəki, Şəmkir, Gəncə, Naxçıvan, Quba, Salyan, Xankəndi və s. yerlərdə ətraf rayonlar cəlb olunmaqla təşkil edilmişdi. 1969-cu ilin oktyabr ayında F. Köçərli adına Respublika Uşaq Kitabxanası Oğuz rayonunda Sovet Azərbaycanının 50 illiyi qarşısında 2 günlük seminar müşavirə təşkil etmişdir. Bu tədbirdə uşaqlara kitabxana xidmətinin aktual məsələləri müzakirə edilmiş, uşaqlar arasında diyarşünaslıq biliklərinin təbliği, kənd kitabxanalarında uşaqlara xidmətin təkmilləşdirilməsi diqqət mərkəzinə çəkilmişdir. F. Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən 1966 -1977 - ci illərdə keçirilmiş seminar müşavirələrdə qəbul olunmuş qərarlarda uşaqlara kitabxana xidmətinin yaxşılaşdırılmasının cari vəzifələri, bölgədə kitabxana işinə vahid rəhbərlik sisteminin formalaşması, uşaqlara kitabxana xidmətinin kompleks planlarının tutulması, bu işə ictimai təşkilatların cəlb edilməsi, bu sahədə şəbəkələrarası qabaqcıl təcrübə mübadiləsinin təşkili, uşaq mütaliəsinə rəhbərlik edən kitabxana işçilərinin ixtisasının artırılması nəzərdə tutulur və onların icrasına nəzarət edilirdi. F. Köçərli adına Respublika Uşaq kitabxanasının ilk metodik fəaliyyətində yerlərə gedişlərə və kitabxanaçıların bilavasitə iş yerində təlimatlandırılmasına xüsusi diqqət verilirdi. Bunu kitabxananın 1966 - 1974-cü illərdə ezamiyyələrlə əhatə olunmuş rayonların sayına dair göstəriciləri sübut edir. Bu dövrdə respublikanın şəhər və rayonlarına gedişlərin ümumi sayı və kitabxanaların əhatəliliyi illər üzrə aşağıdakı kimi olmuşdur:



1966-cı ildə - (96 kitabxanadan) 24 – ü;
1967-ci ildə - (125 kitabxanadan) 33 – ü;

1968- ci ildə -(116 kitabxanadan)  35 – i;
1969- cu ildə - (114 kitabxanadan) 34 – ü;
1970- ci ildə - (122 kitabxanadan) 33 – ü;
1972-ci ildə - (106 kitabxanadan) 25 – i;
1974-cü ildə - (108 kitabxanadan) 30 – u əhatə olunmuşdur.



RUK ı sı öz fəaliyyətinin yalnız ilk beş ilində, yəni 1966 – 1970 – ci illərdə respublikanın şəhər, rayon və kənd kitabxanalarına, o cümlədən, uşaq, kütləvi və məktəb kitabxanalarına 159 gediş təşkil edərək 604 təlimati – metodik köməklik göstərmişdir. 1968 – ci ildə təşkil edilmiş ezamiyələr zamanı 43 rayon mərkəzi uşaq kitabxanasına, 15 rayon məktəb kitabxanasına, 5 kənd kitabxanasına və 7 kənd məktəb kitabxanasına metodik köməklik göstərilmişdir. 1971 – ci ildə şəhər və rayonlara 33 ezamiyyə təşkil edilmiş və il ərzində 42 rayon, 43 kənd və 19 məktəb kitabxanasına metodik köməklik göstərilmişdir. 1966 -1974 - cü illərdə hər bir mərkəzi uşaq kitabxanasına ildə orta hesabla 15 – 20 nüsxə metodik ədəbiyyat göndərilmişdir. Yalnız 1966 - cı ildə belə şöbələr 8 şəhərdə Gəncə, Naxçıvan, Sumqayıt, Tovuz, Mingəçevir, Xaçmaz, Lənkəran, Şəki şəhər Mərkəzi Uşaq Kitabxanalarında metodik şöbələr yaradılmışdır. Bu dövrdə Respublika Uşaq Kitabxanası tərəfindən tərtib edilmiş metodik vəsaitlər aşağıdakı qruplara ayırmaq olar:

1. Müəyyən bilik sahəsinə dair ədəbiyyatın təbliğinə yönəlmiş vəsaitlər;
2. Siyasi kampaniya, tarixi, əlamətdar hadisələr  və günlərlə bağlı kitabxanaların fəaliyyətinə dair vəsaitlər;
3. Yeniyetmələrin və uşaqların mütaliəsindən bəhs edən vəsaitlər;
4. Uşaq kitabxanalarında oxucularla işin müxtəlif metodlarına həsr edilmiş vəsaitlər.

Bu vəsaitlərdən “Yayda nə oxumalı” seriyası altında 2- 8 ci sinif şagirdləri üçün kitab siyahıları, “İllik əlamətdar və tarixi günlər təqvimi”, “kosmonavt günü”(1968), “Diyarşünaslıq üzrə müsabiqənin təşkili”(1968), “A. S. Puşkin” (1969), “Azərbaycan uşaq yazıçıları ”(1971), “Kitabxanalarda uşaq kitabı həftəsinin keçirilməsi metodikası” (1972) və s göstərmək olar.





1966 – cı il – 6 adda; 1967 – ci il 10 adda; 1968 – ci il – 27 adda; 1969 – cu il – 28 adda; 1970 – ci il – 24 adda; 1971 – ci il – 12 adda; 1972 – ci il – 16 adda; 1973 – cü il 18 adda; 1974 – cü il 20 adda.



1968-ci ildə Respublika Uşaq Kitabxanası fondunun işçiləri “Uşaqların mütaliə tərbiyəsində kitab və kitabxananın rolu” mövzusunda metodik məktubu , komplektləşdirmə şöbəsinin əməkdaşları isə “Rayon uşaq kitabxanalarının fondunun komplektləşdirilməsi haqqında əsasnamə” ni rus dilindən Azərbaycan dilinə tərcümə edib yerlərə göndərmişlər. RUK – nın elmi – metodik fəaliyyətinin kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradılmışdır. 1974-cü ildə 2000 nüsxədən artıq çap vahidini əks etdirən bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanmışdır.





Belə ki, 1967 - ci ildə şəhər və rayonlarda uşaqlara xidmət edən 88 müstəqil və 23 uşaq şöbəsi olan kütləvi kitabxana vardı. Onların ümumi fondu 2 milyon 38 min nüsxədən çox idi. Bu kitabxanalardan istifadə edən oxucuların sayı 200 min 310 nəfər, kitab verilişi isə 4 milyon 369 min 700 nüsxə olduğu halda, 1971 ci ildə müstəqil uşaq kitabxanalarının sayı 103, kitab fondu 2 milyon 316 nüsxə, oxucuların sayı 208 min 40 nəfər, kitab verilişi isə 5 milyon 302 min 396nüsxə olmuşdur. Beləliklə, 5 il ərzində respublikada uşaqlara xidmət edən müstəqil kitabxanaların sayı 15, kitab fondu 294,257 nüsxə.




Oxucuların sayı 7 min 340 nəfər, kitab verilişi isə 832, 696 nüsxə artmışdır. 1971 - 1974 - cü illərdə isə respublikada müstəqil uşaq kitabxanalarının sayı 10, ümumi kitab fondu 360 min nüsxə, oxucuların sayı 16.400 nəfər, kitab verilişi 323 min nüsxə, kitabxanaya gəliş 334 min nəfərədək artmışdır. 1965 – ci ildə uşaqlara xidmət edən kitabxanaların həyatında dönüş ili oldu. Azərbaycan Nazirlər Sovetinin 1964 - cü il 26 sentyabr tarixli sərəncamına əsasən uşaq və məktəb kitabxanalarının fəaliyyətinə metodiki rərəhbərliyi təmin etmək və onların işinə yardım göstərmək məqsədilə 1965 - ci il yanvarın 1- də Bakıda F. Köçərli adına Respublika Uşaq Kitabxanası, Belinski adına mərkəzi şəhər uşaq kitabxanası(indiki M. Seyidzadə adına), Naxçıvan MR uşaq kitabxanası və Xankəndində Vilayət Uşaq Kitabxanası təşkil edildi.



F. Köçərli adına Respublika Uşaq Kitabxanasının xüsusi layihə üzrə binası olmadığına görə, Bakı şəhərindəki M. Qorki adına kütləvi kitabxananın bazası əsasında təşkil edilmişdi. O vaxt kitabxananın fondunda cəmi 43.000 nüsxə ədəbiyyat var idi ki, onun da 27.337 nüsxəsini uşaq ədəbiyyatı təşkil edirdi. Buna görə də fondu uşaq kitabları ilə daha da zənginləşdirmək üçün kitabxananın əməkdaşları komplektləşdirmə mənbələrindən tam istifadə etməyə başladılar. Bu məqsədlə Azərbaycanın bütün şəhər və rayon uşaq kitabxanalarına xüsusi məktubla müraciət edildi ki, həmin kitabxanalarda olan artıq nüsxəli uşaq ədəbiyyatı əvəzsiz olaraq yenicə yaradılmış Respublika Uşaq Kitabxanasına göndərilsin. Eyni zamanda, kitabxananın rəhbərliyi başqa respublikaların kitabxanalarından, o cümlədən Moskva,

Sank – Peterburq, Kiyev, Minsk, Kişinyov və s. şəhərlərin kitab mağazalarından sifarişlə kitab almağa nail oldu. Həmin ildə respublika yerli kitabxana kollektoru ilə də müqavilə bağlandı. Lakin bu kollektor kitabxanalar üzrə kitab komplektləşdirməsi işində əsas mənbə olsa da, bəzi hallarda lazım olan uşaq ədəbiyyatı istənilən nüsxədə alına bilmədiyinə görə yerli mağazalara və çoxcildli kitabların çatışmayan cildlərini əldə etmək üçün bukinist mağazalarına müraciət edildi. Kitabxana rus dilində uşaq ədəbiyyatının pullu məcburi nüsxəsini almaq üçün Moskva Mərkəzi Elmi Kitabxana Kollektoru ilə də müqavilə bağladı. Moskva Kollektoru qarşılıqlı razılaşmaya əsasən hər adda kitabdan 5 nüsxə göndərməyə başladı. Bu isə tez bir zamanda rus uşaq ədəbiyyatının kitabxana fondunda artmasına imkan verdi. Azərbaycan müstəqillik qazanana qədər Moskva şəhərindən hər adda kitabdan 3 nüsxə olmaqla, hər il 6 min manat məbləğində 4.700 nüsxəyə yaxın uşaq ədəbiyyatı alınırdı. 1966 - cı ildə oxucu gəlişi 16.098, kitab verilişi 35.861, fondun sayı 20.000 olmuşdur. 1966 - cı ildə metodiki şöbə 24 dəfə rayonlarda ezamiyədə olmuşdur. Kitabxananın əməkdaşları Ağcabədi, Ağsu, Astara, Bərdə, Quba, Qubadlı, Dəvəçi, Yevlax, Zəngilan, zərdab, Kəlbəcər, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Ordubad, Sumqayıt, Xaçmaz, Şamaxı və s. olmuş, həmin rayonların uşaq kitabxanalarına metodiki köməklik etmişlər.

1995 - ci il yanvar ayının 1 - nə olan məlumata görə, F. Köçərli adına Respublika Uşaq Kitabxanasının kitab fondunda 208.619 nüsxədən artıq ədəbiyyat toplanmışdır. Bu da məktəbli oxucuların və mütaliəyə rəhbərlik edənlərin müxtəlif sorğu və tələblərini vaxtında ödəməyə imkan verir. Kitab fondunun ildən – ilə zənginləşdirilməsi, məktəbli oxucuların sayının durmadan artması Respublika Uşaq Kitabxanasının fəaliyyətinin genişlənməsi ilə əlaqədardır.



F. Köçərli adına kitabxanada Elmi metodika şöbəsi fəaliyyətə başladığı dövrdən, yəni 1965 - ci ildən rayon uşaq kitabxanalarından daxil olan illik mətn, statistik hesabatları və illik iş planları əsasında "Uşaq kitabxanalarının fəaliyyəti icmalı" adlı vəsait nəşr edib rayonlara göndərilmişdir. F.Köçərli adına RUK-sının elmi-metodika şöbəsi kitabxana yarandığı gündən- 1965-ci ildən fəaliyyət göstərir. EMŞ-si respublikada uşaqlara xidmət edən kitabxanalar üçün elmi-metodik mərkəzdir. Elmi-metodik mərkəz kimi kitabxana öz metodik funksiyalarını elmi-metodika şöbəsi vasitəsilə həyata keçirilir. Elmi-metodika şöbəsi respublika uşaq kitabxanalarının işini toplayıb analiz və sintez edir, onların hesabatını hazırlayıb rəhbər orqanlara çatdırır, elmi-tədqiqat işləri aparılır, qabaqcıl

təcrübəni bütün ölkəyə yayır, rayonlara ezamiyyələr edir, yeni layihələrin işlənməsində və kitabxananın tədbirlərində yaxından iştirak edir. Elmi-metodika şöbəsində ixtisasa aid elmi-kütləvi yazılar, əlamətdar və tarixi günlərlə bağlı metodik vəsaitlər çap olıunur və bu vəsaitlər uşaq kitabxanalarına göndərilir. Belə vəsaitlərdə milli bayramlar, əlamətdar günlər də öz əksini tapır. Şöbəmizdə ixtisasla bağlı yazılan metodik vəsaitlər isə kitabxana işindən, kitabxana sahəsində baş verən yeniliklər haqqında kitabxana işçilərinə məlumat verir. Şöbənin hazırladığı metodik vəsait və elmi işlər kitabxanamızın saytında geniş şəkildə işıqlandırılır.
Şöbə rayon uşaq kitabxanalarının iş fəaliyyətini daha da zənginləşdirmək məqsədilə seminar-müşavirə, elmi konfrans və "dəyirmi masa" tədbirlərini həyata keçirir. Uşaqların düzgün tərbiyə olunması və mükəmməl tədrisi cəmiyyətin qarşısında duran ümdə vəzifələrdən biridir. Bunun üçün ölkə ərazisində müxtəlif qurumlar fəaliyyət göstərir. Respublikamızda uşaq və yeniyetmələrə kitabxana-informasiya xidməti göstərən, elm-metodiki mərkəz kimi fəaliyyət istiqamətlərini elekton informasiya mühitinə uyğunlaşdıran uşaq mədəniyyət müəssisəsi kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasının formalaşdırmağa başladığı elektron kitabxana da



diqqəti cəlb edir. Kitabxananın saytında on-layn mütaliə üçün təqdim edilən elektron nəşrləri uşaqlar həm oxuya bilər və həm də öz kompüterlərinə də yükləyə bilərlər. Lakin, onların sayı çox zəngin olan Azərbaycan ədəbiyyatı fonunda cüzidir. Qeyd edək ki, kitabxananın oxucuları əsasən ibtidai, orta və yuxarı sinif şagirdləri, litsey, kollec tələbləri və eyni zamanda məktəbəqədər yaşlı uşaqlar və məktəbə getmək imkanından məhrum olmuş, fiziki çatışmazlığı olan yeniyetmələrdir. Son illər kitabxanada layihələr həyata keçirilərək uşaqlar üçün "İnternet zalı", "Biləyən" mult-media otağı yaradılmış, "Kompüter bilikləri və İnternetin əsasları", "Kitabların təmiri və bərpası" üzrə tədris mərkəzi təşkil olunmuş, elektron nəşrlər, elektron kitabxana yaradılması sahəsində maraqlı işlər görülmüşdür.

Hazırda Azərbaycan dilində latın qrafikası ilə maraqlı internet saytları diqqəti cəlb etməkdədir. Azərbaycan uşaq ədəbiyyatnın bir çox janrlarına aid nümunələr təqdim edən http://childbook.aznet.org/childbook/nfatma.html, yeni nəşr olunmuş uşaq kitablarını təqdim edən http://tutu.aznet.org, Dünya xalqlarının nağılları silsiləsində rusca verilmiş Azərbaycan nağılları http://www.skazka.com.ru/people/azerb/azerb.html; http://traditions.aznet.org/traditions/information.html - Azərbaycan xalqının adət-ənənələri; http://www.skazka.com.ru/people/azerb/azerb.html - Azərbaycan nağılları; http://www.askla.org - Azərbaycan nağılları;

http://www.balalar.az.com – Uşaq ədəbiyyatı Şeir və hekayələr; www.azeribooks.aznet.org – "Azərbaycan ədəbiyyatının antologiyası"- və s. kimi ünvanlar yeniyetmə və gənc istifadəçilərin ixtiyarındadır. Respublika üzrə başlıca metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanası da bu sahədə mühüm işləri həyata keçirən mədəniyyət ocağıdır. Moskvada Dövlət Uşaq kitabxanasında "Klub detskix kniq" fəaliyyət göstərir. Mədəniyyət Nazirliyinin xətti ilə o klubun üzvü olmuşuq. Bizə göndərilən kataloqlar əsasında sifariş etmə və yeni ədəbiyyat əldə etmə imkanımız yaranıb. Kitabxana bu gün də uşaqlarla gərgin işləyir, onların təfəkkürünün formalaşması, dünyagörüşünün genişlənməsi üçün öhdəsinə düşən işi layiqincə yerinə yetirir.

Əsası 1965-ci ildə qoyulan kitabxanamız zəngin kitab fondu ilə xüsusilə fərqlənir. Kitabla bağlı heç bir çətinliyimiz yoxdur. Axı təkcə dərslik ədəbiyyatı və bədii ədəbiyyat uşaq ədəbiyyatı fondu demək deyil. Məktəb proqramı ilə bağlı əlavə ədəbiyyata xüsusi tələbat var idi. Bu da bizim kiçik oxucularla six təmasda olmağımız üçün geniş imkan yaradırdı.

2004-cü ildə dövlət proqramı ilə həyata keçirilən sərəncamlardan biri kiril əlifbasından latın qrafikasına keçilməsi oldu. Uşaqların yeni qrafika ilə təhsil alması əvvəlki kitab ehtiyyatını demək olar ki, yararsız etdi. Yeni qrafika ilə bağlı ədəbiyyatın olmaması oxucuya rədd cavabı vermə problemini yaratdı. Nə sinifdənxaric oxu ilə bağlı, nə də dərsliklərə kömək məqsədilə yeni buraxılmış ədəbiyyat vardı. Nəhayət ki, ölkə prezidentinin latın qrafikası ilə kitabların yenidən nəşri barədə sərəncamının məntiqi yekunu olaraq yeni, nəfis tərtibatlı kitablar əldə etdik. Bu qərardan sonra artıq ucqar kəndlərdə də kitabxanalar latın qrafikası ilə nəşr olunmuş kitablarla təmin edildi. Əvvəllər fondun dörddə üç hissəsini rus dilində olan kitablar təşkil edirdi. Əvvəllər Rusiya kitabxana kollektoru ilə əməkdaşlıq edirdik. Son illərdə ayrı kanallar vasitəsilə rus dilində yeni kitabların əldə edilməsinə nail oluruq. Kitabxanamız Moskvanın Premyera nəşriyyatı, Rus Kitab Evi və s. kitabxana nəşrıyyatlarla da əməkdaşlıq zəmnində işlərini davam etdirir. Nəşriyyatlar, müəlliflər hansı kitabları çap ediblərsə, həmin kitabların əldə edilməsinə nail olmağa çalışırıq. Son dövrlərdə "Tutu","Çaşıoğlu", Çinar-Çap, Şirvannəşr, Beşik, Altun nəşriyyatları ilə iş birliyi qururuq. Onlara öz rəy və təkliflərimizi bildiririk.Onlar da da imkan daxilində bizim arzu etdiyimiz ədəbiyyatın nəşrinə nail olmağa çalışırlar". 1986-cı ildən I kateqoroya ilə işləyən F.Köçərli adına uşaq kitabxanasının işçiləri öz işlərini əlamətdar günlər təqvimi əsasında davam etdirərək müxtəlif rəngarəng tədbirlərlə məktəblərdə, uşaq evlərində, uşaq bağçalarında



oz oxucularını sevindirirlər. Az.TV-nin “Çıraq”, “Sərbəst düşüncə” uşaq verilişləri kitabxananın oxu zalında müntəzəm olaraq uşaq şair və yazıçılarının yaradıcılığına müraciət edərək çəkiliş aparır və bununla da uşaqlarda kitaba, mütaliəyə maraq oyadırlar. İl ərzində KİV-dən “Mədəniyyət”, “Xalq”, “Azərbaycan”, “Şəkər villası”, “Etiraf”, “İki sahil” və digər mətbu orqanlarında kitabxananın fəaliyyəti işıqlandırılmışdır.

2005- ci ilin avqust ayında kitabxananın avtomatlaşdırılması məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən “İRBİS” proqramı alınaraq kitabxanada tətbiq olunmuşdur. Əvvəlcə kitabişləmə və komplektləşdirmə şöbəsində Prezidentin sərəncamı ilə çap olunub kitabxanaya alınmış kitablar proqramda işlənmişdir. Bu iş davam etməklə yanaşı məlumat bibliorafiya şöbəsində də sentyabr ayından kitabxanaya alınan qəzet və jurnal məqalələri işlənməyə başlanmışdır. Uçot və qeydiyyat bölməsində yeni yazılmış oxucular, kitab verilişi proqrama daxil edilmişdir.1990-cı ildə kitabxananın nəzdində “Körpəm” Eksperimental Uşaq Teatr Studiyası yaradılmış, geniş repertuarda dəfələrlə cəbhə bölgələrində, uşaq evlərində tamaşalar göstərmişlər. Hər il seçmə tur ilə uşaqlar teatra qəbul olunur, nitq və səhnə mədəniyyəti dərslərini keçməklə aktyorluq sənətinin sirlərinə yiyələnirdilər. Teatrın bütün tədbirləri Azərbaycanda fəaliyyət göstərən televiziya kanallarında, “Körpəm” EUT-un İctimai Televiziya və Radio Yayımları Şirkətinin “Oyun saatı” adlı uşaq verilişində göstərilirdi. Hamiliyə götürdüyümüz 1 və 3 saylı uşaq evlərinin uşaqları tez-tez teatrın tamaşalarında iştirak edir, keçirilən yarışlarda fərqlənənlər, iştirakçılar mükafatlandırılırdı.

Böyük Britaniyanın OXFAM humanitar yardım təşkilatı kitabxanamızda “Danışan kitablar” guşəsini açmış, 700-dən çox audio kasset hədiyyə etmişdir. Burada qrup halında kitabxanaya gələn kiçik yaşlı oxucular üçün nağıllar, azərbaycan yazıçılarının əsərləri, uşaq hüquqları ilə bağlı mətnlər səslənir.

Kitabxanamız İFLA- nın 63-cü konfransında, Türkiyə kitabxanaları, “ABŞ əhalisinin həyatında kitabxanaların rolu” proqramlarında iştirak edərək, uşaq kitabxanalarının inkişafı ilə bağlı dəyirmi stol, səfirliklərin nümayəndələri ilə görüşlər keçirmişdir. 2001- 2003-cü illərdə Açıq



Cəmiyyət İnstitutunun kitabxana proqramında iştirak edərək 3 layihəmiz qrant udmuş, “İnternet sinif otağı”, “Biləyən” multi media zalı açılaraq uşaqların istifadəsinə verilmişdir. İki il ərzində 1500-dən cox uşaq “Kompüter savadlılığının əsasları”, “Mətnlərin sürətlə yığılması” kurslarında fəal iştirak etmiş, internetdən istifadə etməklə dünya sivilizasiyasının geniş imkanlarına yiyələnmişlər. “Gələcəyin dialoqu:

Uşaqlar və kitablar” adlı üçüncü layihə əsasında əksəriyyəti qaçqın olan uşaqlar layihəyə cəlb olunaraq, 800- dən çox kitabın cildlənməsində iştirak etdilər. Onlar kitabların cildlənməsi ilə bağlı keçirilən dərslərdə təlimatlanaraq 6 ay əmək haqqı almışlar. “İnternet-sinif” və “Biləyən” multi-media zalında uşaqlar internetdən istifadə etməklə istədikləri materialları əldə edə bilmiş, həmçinin CD disklərdən istifadə etmişlər.

2004-cü ildə “Mədəni – Maarif ” jurnalında bizim təklifimiz ilə “Uşaq kitabxanalarına kömək” rubrikası açılmış, elmi-metodiki vəsaitlər artıq jurnalın hər bir nömrəsində işıqlanır. Kitabxana əvvəlki illərdə olduğu kimi yenə də respublikanın bir sıra uşaq kitabxanalarına əməli və metodiki köməklik göstərmişdir. İsmayıllı Uşaq kitabxanasını hamiliyə götürmüş, Böyük Britaniyanın OXFAM humanitar təşkilatı tərəfindən “Danışan Kitablar”-ın 120 kasseti və audiomaqnitafon, yazıçı və şairlərin A3 formatda şəkilləri çərçivəyə salınaraq kitabxanaya hədiyyə edilmişdir.
Kitabxananın veb-saytı hazırlanmış, ( childlibbaku.aznet.orq ) kitabxana haqqında tam informasiya orada öz əksini tapmışdır. Mədəniyyət



Nazirliyinin Avropa Şurası ilə birgə STAGE layihəsi üzrə keçirdiyi debatlarda iştirak etmiş, uşaq kitabxanalarının gələcək inkişafı ilə bağlı təkliflərimizi vermişik. Kitabxanamız ABŞ səfrliyi nəzdində Təhsil Mərkəzinin regionlarda kitabxana işi ilə bağlı keçirdikləri görüşələrdə iştirak edir. Uşaq ədəbiyyatının nəşri problemləri ilə bağlı dəyirmi stol keçirmiş, nəşriyyatlar, uşaq yazarları ilə müzakirələr aparmışıq. Bir neçə il kitabxananın nəzdində “Gənc müxbir” dərnəyi fəaliyyət göstərmişdir. Ədəbiyyat dərnəyinin fəal üzvlərinin ikisinin kitabı çap olunmuş, məktəblərdə kitabxanalara verilmişdir. Böyük Vətən Müharibəsinin 60 illiyi ilə bağlı inşa yazı və rəsm müsabiqəsinin elanı uşaq qəzetləri vasitəsilə verilmiş, mayın 6-da qaliblər müəyyənləşərək, mükafatlandırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli fərmanla bağlı 2005- ci ildə hərəsindən 60 nüsxə olmaqla 185 adda kitab alınmışdır. Çox sevinirik ki, bu kitablar kitabxanalara hədiyyə olunmuş və respublikamızın ən ucqar rayon kitabxanaları belə, həmin kitablarla təmin olunmuşlar. Kitabxana insanların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. Kitabxana bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin

maariflənməsinə xidmət göstərir. Bu gün kitabxanalara dövlət tərəfindən xüsusi diqqət və qayğı ilə yanaşılır.

Kitabxanalar beynəlxalq - Krım, İFLA, Anapa, Lipetsk konfranslarda iştirak etməklə Müstəqil Azərbaycanımızın kitabxana işi sahəsindəki uğurlarını dünya ictimaiyyətinə çatdırırlar. 2003-cü ildə Azərbaycan kitabxanaçıları beynəlxalq qonaqlar üçün təşkil olunmuş proqramda iştirak etməklə ABŞ-ın 5 ştatında olmuş, hazırda həmin ştatların kitabxanaları ilə əlaqə saxlanılmaqdadır. Həmçinin Amerikanın ölkəmizdəki səfirliyinin köməyi ilə ingilis dilində uşaq kitabları, tərcümə mərkəzinin sifarişi ilə "Tutu" nəşriyyatında buraxılan azsaylı xalqların nağılları kitabxanaya hədiyyə (10 min nüsxə) edilmişdir. İsveçrə, Türkiyə, Ukrayna, Moldova, Almaniya, Sloveniya, Bosniya ölkələrinin şəhər kitabxana cəmiyyətləri ilə müqavilə yaradılmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. 2009-cu ildə Almaniyanın Azərbaycandakı səfiri Per Kristofer Stançinanın təşəbbüsü ilə kitabxanada alman uşaq ədəbiyyatı sərgisi keçirilmişdir. Tədbiri keçirməkdə əsas məqsədimiz alman mədəniyyətinin təbliği, uşaq ədəbiyyatı nümunələrinin nümayiş etdirilməsi və onlara maraq yaratmaq idi. Sərgidə alman uşaq ədəbiyyatının multimedia nümayişi oxucuların daha çox xoşuna gəldi. Almaniyanın Azərbaycandakı səfiri Sülh mövzusunda üç plakatı və 121 uşaq kitablarını kitabxanamıza hədiyyə etdi.



6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə sərəncamı kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verən mühüm sənəd kimi ölkə Prezidentinin bütövlükdə mədəniyyətə və mədəni dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsidir. Kitab bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcısıdır. Buna görə də inkişaf etmiş xalqlar kitaba xüsusi önəm verir, onun yazarına, nəşrinə və təbliğinə qayği ilə yanaşırlar. Uşaqların informasiya tələbatının ödənilməsi, onların mütaliəyə cəlb edilməsi uşaq kitabxanaları qarşısında duran ən vacib məsələlərdən biridir. Bizim kitabxanamız bu gün yeniyetmələr içərisində daha çox oxunan yazıçı Varisin kitablarının üz qabığında getmiş şüarından deviz kimi istifadə edib oxu zalında uşaqların diqqətinə çatdırmışdır: "Kitab oxumağın vaxtıdır". Son illərdə Dövlət Proqramının həlli istiqamətində atılan addımlardan biri də rayonlarda aparılan monitorinqlər,uşaq kitabxanalarında keçirilən rəy sorğularıdır. Aparılan monitorinqlər, sorğulardan sonra F.Köçərli adına Respublika Uşaq kitabxanası Bakı şəhər uşaq və məktəb kitabxanaçıları üçün "Kitabxanaya

uşaqların cəlbi: Mütaliə haqqında düşüncələr" mövzusunda elmi konfrans keçirmişdi. Konfransda müəllimlər, valideynlər, uşaq və məktəb kitabxanaçıları, yazıçılardan Nüşabə Məmmədli, Rafiq Yusifoğlu, Sevinc Nuru qızı, Gülzar İbrahimova, "Mədənəyyət" qəzetinin müxbiri, Ombusdman nümayəndəliyindən, "Uşaqdan uşağa sülh şəbəkəsi" iştirak edirdi. Konfransı keçirməkdə əsas məqsədimiz uşaqların mütaliəyə cəlb olunması ilə bağlı qarşıda duran problem məsələlərin aradan qaldırılması və həlli istiqamətində mütəxəssis rəylərinin bir araya gəlməsi idi. Respublikamızda kitaba marağın azalması ağrılı hal olsa da, artıq ölkəmizdə



fəaliyyət göstərən istər dövlət, istərsə də özəl nəşriyyatlar poliqrafik baxımdan keyfiyyətli uşaq kitablarının nəşrini getdikcə artırır. Bu gün paytaxtın kitab mağazalarından öz məhsullarımız olan və bir cox keyfiyyətlərinə görə alıcını qane edən belə uşaq kitablarına rast gəlmək olar. Kitabların tanıdılması və oxucuya sevdirilməsi işinin ağırlığı isə daha çox biz kitabxanaçıların üzərinə düşür.

Müstəqilliyimizin 20 illiyi ərəfəsində digər mədəni-kütləvi tədbirlərlə yanaşı, kitab nəşri və təbliğinə həsr edilən görüşlərin, sərgilərin keçirilməsi bu səpkidən olan tədbirlərin önəmlisidir. Belə tədbirlərdən biri məhz F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə gerçəkləşdirdiyi 29 sentyabr- 05 oktyabr 2011-ci il "Kitab karvanı: uşaq kitabları İpək yolu ilə" adlı uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisidir. Paytaxtdan yola çıxan karvanın ilk dayanacağı Goranboy, son dayanacığı isə Qazax rayonu oldu. Rayon mərkəzindəki yamyaşıl Heydər Əliyev adına parkda kitab karvanı ilə gəlmiş kitabxana işçilərini, uşaq yazıçı və şairlərini, kütləvi informasiya vasitələrinin əməkdaşlarını, ilk növbədə, məktəblilər, mədəniyyət və təhsil işçiləri, bu tədbirə böyük maraq göstərən rayon sakinləri, bir sözlə bütün kitabsevərlər qarşıladı. Tədbir, əvvəlcə, ulu öndərimizin adını daşıyan parkda təşkil edilən kitablara baxışla və onların tanıdılması, sərgilənməsi ilə başladı. Həmin kitablar Bakıda fəaliyyət göstərən "Altun", "Təhsil", ANS Press Nəşriyyat Evi, "Kitab klubu", "Beşik", "Çinarçap", "Turan" və digər nəşriyyatların məhsulları idi. Sərgidə uşaqlar üçün nəşr edilən qəzet və jurnalların da ayrı-ayrı sayları və onların əlavələri olan müxtəlif səpkili kitablar da vardı. Uşaq mətbuatımızın ən populyar nəşri olan "Tumurcuq" qəzetinin və "Göyərçin" jurnalının xüsusi buraxılışları və "Tətil kitabları" , "Sehrli dünya" jurnalının yeni nəşri oxuculara təqdim olundu. Altı rayona İpək yolu ilə səfərə çıxan kitab karvanı hər bir rayon uşaq kitabxanasına 900-dən çox uşaq kitabları hədiyyə etdi. Həmin kitablar 2005-2009-cu illərdə nəşr olunmuş gözəl tərtibatlı uşaq kitabları idi . İlk kitab karvanını

qarşılayan Goranboy rayon MKS-nin uşaq şöbəsi oldu. Mədəniyyət və Turizm şöbəsinin müdiri qiymətli hədiyyələrə görə təşəkkür etdi və bildirdi ki, hazırda rayon kitabxanalarında məhz uşaq ədəbiyyatına dair yeni kitablara böyük ehtiyac var. Professor Zahid Xəlil, uşaqların sevimlisi İlyas Tapdıq, "Sehrli dunya" jurnalının redaktoru Gülzar İbrahimova və Qarabağ mövzusunda gözəl əsərlər yazan "Yazıçı qadınlar" İctimai Birliyinin sədri Nüşabə Məmmədli tədbirin əhəmiyyəti barədə öz fikirlərini söylədilər. Uşaqlar da qonaqlara borclu qalmadılar. Onlar uşaq ədəbiyyatının nümunələri əsasında hazırladıqları səhnəcikləri göstərdilər, şeirlər söylədilər, milli rəqslərimizi ifa etdilər və bir-birindən şən mahnılar oxudular. Kiçik yaşlılar arasında "Tap görüm" viktorinası da uşaqları sevindirdi. Sualları düzgün cavablandıran məktəblilər mükafatlandırıldi. Kitab sərgisi ilə yanaşı, düzənlənən "Bu da mən" rəsm müsabiqəsi də uğurla keçdi. Bir sözlə, kitab karvanı Goranboydan başladı, Qazaxda tamamlandı, məktəblilər üçün əsil bilik bayramına çevrildi və hər bir rayonda günəş batanadək davam etdi.

"Uşaq kitab karvanı – İpək yolu ilə" regionlararası tədbir Goranboy, Gəncə şəhəri, Şəmkir, Tovuz, Ağstafa rayonlarında uğurla keçdi, tədbir sözügedən şəhər və rayonların ictimaiyyətinin böyük marağına səbəb oldu. Cəmiyyətin həssas və kövrək zümrəsi olan uşaqlar ölkəmizdə daim yüksək qayğı, diqqət və nəvazişlə əhatə olunmuşlar. Azərbaycan cəmiyyəti həmişə uşaqlara məhəbbətlə yanaşıb, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmağa çalışıb, necə deyərlər, hər şeyin yaxşısını uşaqlara verib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılmalıdır. Bu mühüm kampaniya çərçivəsində respublikamızda uşaq hüquqları sahəsində ardıcıl və məqsədyönlü xarakter daşıyan tədbirlər həyata keçirilmişdir. Amma əslində təkcə 2009-cu ildə deyil, bütün sonrakı illərdə də uşaqların problemlərinin həllinə Azərbaycan dövləti öz diqqətini bir an belə azaltmamış, əksinə, daim artırmağa çalışmışdır.

Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin 20 illiyi, həmçinin 2009-cu il uşaq ili ilə əlaqədar kitabxanamız Hüquq həftəsi çərçivəsində bir çox məktəblərdə yuxarı sinif şagirdləri arasında "Hüquq biliciləri" adlı maariflənmə işi aparmış, diskussiya təşkil etmişdir. Tədbirdə Ombudsman nümayəndələrindən hüquqi maarifləndirmə sektorunun baş məsləhətçisi Rəşid Rumzadə, insan hüquqları müdafiəsi şöbəsinin məhbusların hüquqlarının müdafiəsi sektorunun böyük məsləhətçisi Lalə Əzimova, Bakı baş təhsil idarəsinin əməkdaşları, tarix və ədəbiyyat müəllimləri iştirak etmişdir. Hüquq həftəsi çərçivəsində keçirələn tədbirlərdən- "Baş rolda mənim hüquqlarım" adlı rəsm müsabiqəsində də yetmişdən çox uşaq iştirak etmiş, qaliblər mükafatlanmışdır. Hüquq həftəsi çərçivəsində yekun olaraq 1 saylı məktəbdə "Uşaqları qoruyaq" adlı bayram keçirilmişdir. Bayram (sözləri Gülnur Aslan, musiqisi Novruz Aslan) Rəşad İlyasovun ifasında

“Uşaqları qoruyaq” klipinin proyektor vasitəsilə nümayişi ilə başlamış və “Qoy həmişə günəş olsun” musiqisinin müşayiəti ilə sona çatmışdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası artıq neçə illərdir ki, R.Zorge adına parkda, dahi klassikimiz Nizaminin heykəli qarşısında müasir Azərbaycanın müstəqilliyinin memarı, qurucusu olan ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin anadan olması günü ilə əlaqədar hər il “Uşaq kitab bayramı” keçirir. Uşaqlar arasında keçirilən “Heydər Əliyevin şah əsəri – Müstəqil Azərbaycan” adlı şəkil müsabiqəsinin qaliblərini şəxsən



Mədəniyyət və Turizm naziri Ə.Qarayev təbrik edərək onlara fəxri diplomları təqdim etmişdir. Kitab bayramında uşaqların çox sevdikləri nağıl kitablarının paradı keçirilərək bütün kitabsevərlərin diqqətini cəlb etmişdir. Tədbirdə “Kitablar “ öz ürək sözlərini nəşriyyatlara, yazıçılara bildirmişlər. Kitab bayramında təşkil olunmuş “Heydər baba – Millət atası”, “Heydər Əliyev və uşaqlar” “Əsrin müqaviləsindən başlanan yol”, “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!”, “Xalqa, Vətənə, Dövlətə sədaqət”, “Millətin xilaskarı”, “Təbiət bizim evimizdir”, “Mənim nağıllı dünyam”, “Sənin maraq dünyan”, “Göyərçin -50”, “Yeddi rəngli kəmərim” kitab sərgilərilərinə uşaqlar maraqla baxmış, A.Şaiq adına Kukla Teatının hazırladığı “Cik-cik xanım” tamaşası da balacaları sevindirmişdir. Dövlət Uşaq Filarmoniyası, Bülbül adına musiqi məktəbi, T.İsmayılov adına Uşaq və Gənclər Yaradıcılıq Sarayı, Bakı şəhər məktəbləri, İncəsənət gimnaziyasının şagirdləri də öz maraqlı ifaları ilə yadda qalmışlar. Kitabxanaçılar kiçik yaşlılar arasında viktorina keçirmiş, viktorinada suallara düzgün cavab verənlər kiçik hədiyyələrlə mükafatlandırılmışdır. Tədbirdə uşaq yazıçı və şairlərindən Əlməmdar Quluzadə, Rafiq Yusifoğlu, Sevinc Nuruqızı, Gülzar İbrahimova çıxış edərək bayram münasibətilə uşaqları təbrik etmişdir. Kitab bayramları bir daha oxucuların Müstəqil Azərbaycanımızda kitabxanaya, kitaba olan sevgisini nümayiş etdirmişdir.



2009-cu il Uşaq İli ilə əlaqədar “Dünya uşaq ədəbiyyatının inciləri” adlı beynəlxalq kitab sərgisinin açılışı olmuşdur. Tədbirdə uşaq yazıçı və şairləri, naşirləri, sərgidə iştirak edən 20 dövlətin səfirliklərinin nümayəndələri, KİV nümayəndələri, nəşriyyatların redaktorları, kitabxananın işçiləri, məktəblilər, uşaq

baxçasının məktəbə hazırlıq qrupunun uşaqları iştirak etmişdir. Tədbiri keçirməkdə məqsədimiz kitab mədəniyyətinin təbliği, dünya uşaq ədəbiyyatı nümunələrinin daha aydın şəkildə geniş oxucu kütləsinə göstərilməsi, ona maraq yaratmaqdan ibarət idi. Sərgidən sonra kitabxanaya hədiyyə olunmuş kitablar kitabxananın dünya uşaq ədəbiyyatı fondunda saxlanılır və geniş oxucu kütləsinin istifadəsinə verilmişdir. Türkiyə, Amerika, Böyük Britaniya, Almaniya, Yaponiya, Rusiya, Ukrayna, Belarusiya, Litva, İran, Hindistan, İtaliya, Polşa, Norveç, Bolqarıstan, Estoniya, İspaniya və digər ölkələrin səfirlikləri öz uşaq ədəbiyyatlarını kitabxanada nümayiş etdirməklə təkcə uşaq ədəbiyyatı nəşri ilə məşğul olan nəşriyyatların, redaktorların, yazarların deyil, həmçinin uşaqların marağına səbəb olmuşdur. Tədbirdə səfirliklərdən nümayəndələr və uşaq yazıçıları, naşirlər sərgi ilə bağlı öz fikirlərini söyləmiş, kitabxananın rəy dəftərinə öz fikirlərini yazmışlar. Təxminən 1500-ə yaxın dünya uşaq ədəbiyyatı nümunələri sərgidə nümayiş etdirilmiş, sərgidən sonra isə kitabxananın fonduna hədiyyə edilmişdir. İtaliyanın Azərbaycandakı səfiri Mario Baldi öz uşaqlıq kitablarını kitabxanamıza hədiyyə etmişdir. Amerika səfirliyinin tərcümə layihəsi əsasında çap edilmiş azsaylı xalqların nağılları, “Göy qurşağı ” jurnalı, kitabxananın adı həkk olunmuş qələm və təqvimlər, Azərbaycan nağılları sərgi iştirakçılarına paylanmışdır.

2010-cu ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası ilk dəfə olaraq Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Xaçmaz rayonunda ekologiya ilinə həsr olunmuş “Ekoloji kitab bayramı” keçirdi. Tədbiri keçirməkdə məqsədimiz təkcə ekologiyaya deyil, müxtəlif mövzulara dair ədəbiyyatın ictimaiyyətin diqqətinə çatdırılması, kitab bayramı ilə mütaliəyə maraq yaratmaq idi. Keçirilən “Ekologiya və biz” adlı rəsm müsabiqəsi, “Yurdumuzu gülüstana çevirək”, “Yaşıl həyat” adlı aksiyalarda uşaqlar iştirak etməklə ekologiyaya aid kitablarla daha yaxından tanış oldular. Tədbirdə kiçik yaşlı uşaqlar kitab, təbiətin mühafizəsi ilə bağlı şeirlər söylədi, mahnılar oxudu. Kitabxanaçılar təbiətdə davranış qaydaları ilə bağlı kiçik yaşlılarla viktorina keçirdi və viktorinada suallara düzgün cavab verənlər kiçik hədiyyələrlə mükafatlandırıldı.





BMT 21 mart gününü - Beynəlxalq Novruz Günü elan etmişdir. Bununla əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanası 16 mart 2011-ci ildə "Rusiya- Azərbaycan: İki mədəniyyətin dialoqu" adlı telekörpü keçirmişdir. Tədbiri keçirməkdə əsas məqsəd Rusiyada yaşayan Azərbaycanlı uşaqlara elimizin gözəl bayramı olan Novruzla bağlı məlumat vermək, uşaqların ifasında el şənliyini göstərməklə milli, mənəvi dəyərlərimizin dünyanın hər bir yerində qorunub saxlanmasına nail olmaqdır. Tədbirdə Novruz bayramı ilə əlaqədar kitab sərgiləri, bayram süfrəsi təşkil olunmuşdu. Bayramda uşaqların sevimli yazıçılarından Nüşabə Məmmədli, Sevinc Nuruqızı, Gülzar İbrahimova, Mədəniyyət və Turizm Nazirliyi Kitabxana sektorunun müdiri Lətifə xanım Məmmədova, həmin şöbənin məsləhətçiləri, Rusiyanın Azərbaycandakı səfirliyinin əməkdaşı, Dünya Azərbaycanlıları Həmrəyliyi İctimai Birliyinin sədri Tofiq Əlizadə, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının rəqs kollektivi iştirak edirdi. Volqoqrad şəhəri Vilayət Uşaq Kitabxanasında təşkil olunmuş telekörpüdə Volqoqrad Vilayət Mədəniyyət Komitəsinin katibi Qepfner Viktor Petroviç, Milli Məsələlər üzrə Komitənin katibi Rəna Qasımova, "Ümumrusiya Azərbaycan Konqresi" Volqoqrad Vilayəti üzrə regional şöbənin katibi Teymur Həsənov, kitabxana işçiləri, azərbaycanlı uşaqlar və valideynlər iştirak edirdi. Rusiya Federasiyası Volqoqrad Vilayət Uşaq Kitabxanasının direktoru Tatyana Aleksandrovna, müavini Olqa Qlebova çıxış edərək kitabxanamızın onlara göndərdiyi 100 ədəd Azərbaycan uşaq kitabları əsasında təşkil etdikləri sərgidən, həmçinin xüsusi buraxılışla nəşr olunmuş, Novruz bayramına həsr olunmuş "Göy qurşağı" jurnalının Azərbaycanlı uşaqların necə sevincinə səbəb olmasından söhbət etdilər. Bayram şənliyi təqdim olundu. Uşaqlar milli geyimdə çıxış edərək, şeirlər və mahnılar söylədilər, səməni və xonçalarla rəqs etdilər, novruz çərşənbələrindən danışdılar, papaqatdı, yumurta döyüşü, ocaq üzərindən tullanma kimi qədim adətlərimizi göstərdilər. Bahar qızı , Bənövşə tədbir iştirakçılarını salamladı, Kosa və Keçəl isə öz məzəli səhnəcikləri ilə uşaqları xeyli güldürdü.

Uşaqlar arasında "Boxçadan suallar" adlı viktorina keçirildi, suala düzgün cavab tapanlar Cırtdanın torbasından hədiyyə qazandılar.

2011-ci il 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günü və Müstəqilliyimizin 20 illiyinə həsr olunmuş "Dünyanı verək uşaqlara" adlı Uşaq Kitabı Bayramı keçirildi. Tədbir "Müstəqil Azərbaycan " adlı sənədli filmin nümayişi ilə başladı. Tədbirdə uşaq yazıçıları, naşirlər iştirak edirdi. "Müstəqilliyimizin təntənəsi" adı altında reallaşmış tədbirdə dövlət müstəqilliyimizin bərpa tarixi haqqında ətraflı məlumat verildi. Müstəqilliyimizin möhkəmləndirilməsində, əbədiliyinin və dönməzliyinin

təmin edilməsində müasir müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əvəzsiz tarixi xidmətləri vurğulandı.

Məktəblilərin asudə vaxtının düzgün təşkili onların müəyyən fəalliyyətə cəlb olunması deməkdir. Asudə vaxt düzgün təşkil olunduqda məktəblidə əməyə maraq güclənir, onlarda mədəniyyət və incəsənət nümunələri ilə tanış olmaq həvəsi artır. Asudə vaxtdan düzgün istifadə forması şəxsiyyətin şüur və əqidəsinə, həyata baxışına təsir edir, onların inkişafına təkan verir. Uşaq kitabxanaları gənc nəslin tərbiyəsində misilsiz təsir qüvvəsinə malikdir.




Gənc nəslin tərbiyəsi və mütaliəsi ilə məşğul olan hər bir kitabxanaçı işini elə qurmalıdır ki, yetişən hər bir gənci dövrün tələbinə cavab verə biləcək və bir səviyyəyə çatdıra, bilik və bacarıqlara yiyələndirə bilsin.. Uşaqların savadlı, zəhmətsevər, ağıllı və sağlam yetişməsində kitabxanalar da eyni dərəcədə maraqlıdır. Kiçik yaş qrup oxu zalında uşaqların boş vaxtlarının səmərəli keçməsi üçün onlara həm oxumaq, həm də rəngləmək üçün «Elli», «Cırtdan», «Bala dili», «Göyərçin», «Günəş», «Elli» jurnalına əlavə olunan «Elli Boya» jurnallarını verirlər. Kitabxanamızda balaca uşaqlar üçün təşkil olunmuş nağıl otağında uşaqlar sərbəst, valideynin, kitabxanaçının köməyi ilə istədiyi nağıl kitabını oxuyur, CD diskə qulaq asır, cizgi filmlərinə baxırlar. Elm, bilik mənbəyi olan kitab insanın ən yaxın dostu, ən əziz həmdəmidir. Kitabsız hər hansı bir elmin sirlərini dərindən öyrənib mənimsəmək, hərtərəfli inkişaf edən mədəni insan olmaq mümkün deyildir. Elmi - texniki tərəqqinin yüksək vüsət aldığı indiki zamanda kitabdan istifadənin əhəmiyyəti də artır. Bilik mənbəyi olan kitablar isə kitabxanalarda cəmlənir. Son onilliklər ərzində respublikamızda kitabın xalq arasında düzgün təbliğ olunması üçün geniş kitabxana şəbəkələri yaradılmış və bu sahədə mühüm işlər görülmüşdür. Məktəbəqədər və kiçik yaşlı qrupu oxucularının asudə vaxtını daha maraqlı keçirmək üçün kitabxanada təşkil olunmuş ekskursiya yaxşı səmərə verir. Uşaq kitabxanaları məktəblərlə əlaqəli işlədiyindən həmin məktəbin kiçik yaşlılarının kitabxanaya ekskursiyaları, kitabxanalarda onlar üçün yaradılmış ən müasir nağıl otaqları, multimedia zalları, dərnəklərlə tanışlıq olmaqla, kitaba, mütaliəyə daha çox maraq göstərirlər.



Kitabxanalarda təşkil edilən bütün tədbirlər, xüsusən, dərnək məşğələləri, söhbətlər, disput və müzakirələr, ədəbi-bədii gecələr və s. tədbirlər oxucuların asudə vaxtının səmərəli keçməsinə geniş şərait yaradır, mütaliəyə marağı artırır. Müasir kitabxana işini yeni informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək bir qədər çətindir. İnformasiya və kommunikasiya texnologiyalarının insan fəaliyyətinin bir sıra sahələrində olduğu kimi  kitabxana işində də tətbiqi ənənəvi  kitabxana proseslərinin sürətlənməsinə və optimallaşmasına gətirib çıxarır. Kitabxana işinin avtomatlaşdırılması təcrübəsi dünya ölkələrinə ötən əsrin 60-cı illərindən tanış olsa da, Azərbaycanda bu tip fəaliyyətin həyata keçirilməsi 90-cı illərin sonlarına təsadüf edir. Hələ 2001-ci ildə Amerika səfirliyi nəzdində fəaliyyət göstərən Treninq Mərkəzində kitabxanaçılarımız "Kitabxanalarda avtomatlaşdırılmış idarəetmə sistemləri " ilə bağlı kurslarda iştirak etsələr də kitabxanalarda sistemli proqram tətbiq olunmamışdı.  Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə kitabxanalarda bu iş başladı. "İRBİS-64" avtomatlaşdırılmış proqramı alınaraq 2005-ci ildən kitabxanamızda tətbiq olunmağa başladı. Məlumdur ki,  kitabxana proseslərinin avtomatlaşdırlması vahid  avtomatlaşdırılmış kitabxana informasiya sistemi vasitəsilə həyata keçirilməli, kitabxanada tətbiq olunan proqram təminatı bu və ya digər tələblərə cavab verməlidir. Kitabxanamızın mütəxəssisləri elektron kataloqun formalaşdırılmasında dünya kitabxanalarının təcrübəsini öyrənir və onlara əsaslanaraq, elektron kataloqun yaradılmasının mövcud olan müxtəlif yollarının ən optimal və əlverişlisini seçib, sənədlərin elektron kataloqa daxil edilməsi qaydalarını müəyyən edərək ümumi metodikasını işləyib hazırlamağa başlamışdır. Elektron kataloqun formalaşdırılması üçün qəbul edilmiş standartlara uyğun olaraq cari ədəbiyyatın biblioqrafik təsviri, elektron kataloqun redaktəsi aparılır. Bütün bunlarla yanaşı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının qarşısında duran mühüm vəzifələrdən biri oxuculara metodika, biblioqrafiya və elmi informasiya xidmətini dünya kitabxanaları səviyyəsinə qaldırmaq, oxucuların tələbatını ödəmək üçün yeni informasiya texnologiyalarını tətbiq etmək, İnternet şəbəkəsinin elektron ehtiyatlarından istifadə etməkdir. F. Köçərli adına Respublika Uşaq Kitabxanası öz iş prosesini dünya kitabxanaları səviyyəsinə çatdırmağa səy göstərir.





Hazırda kitabxanamızın saitində "Heydər Əliyev və uşaqlar", uşaqların intellektual səviyyəsinin yüksəlməsinə kömək edən kitablara aid ayrıca bir baza – "Əyləncəli kitablar", "Ekologiya" adlı bazalar yaradılmışdır. İRBİS – 64 AKİS proqramında versiyalarla bağlı yeniliklərin tətbiqindən sonra Veb İRBİS – in interfeysi tam tərcümə edilmişdir. Mədəniyyət və Turizm Nazirliyi 2000-cu ili "Kitabxanaların avtomatlaşdırılması ili" elan etmişdi. Bu isə təsadüfü deyildi. Belə ki, ölkə Prezidenti İlham Əliyevin 6 oktyabr 2008 - ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013 - cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın icrası ilə əlaqədar olaraq kitabxana şəbəkəsinin informasiyalaşdırılması, elektron kataloqların, elektron kitabxanaların, veb saytlarının yaradılması və İnternetdə yerləşdirilməsi istiqamətində bir sıra səmərəli işlər görülmüşdür. Müstəqillik illərində uşaqlara kitabxana – informasiya xidmətini daha da yaxşılaşdırmağı, informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan F. Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivi kitabxana işinin informasiyalaşdırılması və kitabxananın informasiya texnologiyası ilə təmin edilməsi sahəsində müəyyən uğurlar qazanmışdır. Kitabaxanamız öz iş prosesini dünya kitabxanları səviyyəsinə çatdırmağa səy göstərir. Bundan sonra da informasiya təminatı istiqamətində faəliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcək.



Kitabxanada daim həyat qaynayır, uşaqların dünyagörüşlərinin formalaşması, mütaliəyə cəlb olunması ilə bağlı daha maraqlı işlər keçirilməsi üçün elmi tədqiqat işləri aparılır, sorgular keçiririlir. 1995 - ci il yanvar ayının 1 - nə olan məlumata görə, F. Köçərli adına Respublika Uşaq Kitabxanasının kitab fondunda 208.619 nüsxədən artıq ədəbiyyat toplanmışdır. Bu da məktəbli oxucuların və mütaliəyə rəhbərlik edənlərin müxtəlif sorğu və tələblərini vaxtında ödəməyə imkan verir. Kitab fondunun ildən – ilə zənginləşdirilməsi, məktəbli oxucuların sayının durmadan artması Respublika Uşaq Kitabxanasının fəaliyyətinin genişlənməsi ilə əlaqədardır. Elmi metodika şöbəsi fəaliyyətə başladığı dövrdən, yəni 1965 – ci ildən rayon uşaq kitabxanalarından daxil olan illik

mətn, statistik hesabatları və illik iş planları əsasında “Uşaq kitabxanalarının fəaliyyəti icmalı” adlı vəsait nəşr edib rayonlara göndərir.



Bəli, F.Köçərli adına RUK-sının elmi-metodika şöbəsi kitabxana yarandığı gündən- 1965-ci ildən fəaliyyət göstərir. EMŞ-si respublikada uşaqlara xidmət edən kitabxanalar üçün elmi-metodik mərkəzdir. Elmi-metodik mərkəz kimi kitabxana öz metodik funksiyalarını elmi-metodika şöbəsi vasitəsilə həyata keçirilir. Elmi-metodika şöbəsi respublika uşaq kitabxanalarının işini toplayıb analiz və sintez edir, onların hesabatını hazırlayıb rəhbər orqanlara çatdırır, elmi-tədqiqat işləri aparılır, qabaqcıl təcrübəni bütün ölkəyə yayır, rayonlara ezamiyyələr edir, yeni layihələrin işlənməsində və kitabxananın tədbirlərində yaxından iştirak edir. Elmi-metodika şöbəsində ixtisasa aid elmi-kütləvi yazılar, əlamətdar və tarixi günlərlə bağlı metodik vəsaitlər çap olıunur və bu vəsaitlər uşaq kitabxanalarına göndərilir. Yubiley günləri ilə bağlı yazılarda görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin kitabxana-biblioqrafiya qaydası ilə təbliğ olunmasının metodikası verilir. Belə vəsaitlərdə milli bayramlar, əlamətdar günlər də öz əksini tapır. Şöbəmizdə ixtisasla bağlı yazılan metodik vəsaitlər isə kitabxana işindən, kitabxana sahəsində baş verən yeniliklər haqqında kitabxana işçilərinə məlumat verir. Şöbənin hazırladığı metodik vəsait və elmi işlər kitabxanamızın saytında geniş işıqlandırılır. Şöbə rayon uşaq kitabxanalarının iş fəaliyyətini daha da zənginləşdirmək məqsədilə seminar-müşavirə, elmi konfrans və “dəyirmi stol” tədbirlərini həyata keçirir.



Müstəqilliyimizin 20 illiyi və Turizm ili ilə əlaqədar il ərzində maraqlı tədbirlər keçirilmiş, televiziya kanalları vasitəsilə işıqlandırılmışdır. Kitabxanamız beynəlxalq - Krım, Lipetsk konfranslarda iştirak etməklə Müstəqil Azərbaycanımızın respublika uşaq kitabxanasının uğurlarını dünya ictimaiyyətinə çatdırmışlar. İsveçrə, Türkiyə, Ukrayna, Almaniya, Bosniya, Sloveniya, Moldova ölkələrinin şəhərlərinin kitabxana cəmiyyətləri ilə müqavilə yaradılmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir.

20-23 iyun 2011-ci il tarixində Rusiyanın Lipesk şəhərində keçirilən V “Bələdiyyə kitabxanalarının informasiya resurslarının şəhərin inkişafında rolu. Təcrübə və perspektivlər” adlı “Mütaliə” konfransında ilk dəfə olaraq iştirak etdik. Tədbirdə “Kitabxanaya uşaqların cəlbi. Mütaliə haqqında düşüncələr” adlı məruzələr oldu, kitabxananın yeni binada təqdimatının video çarxını qonaqlara təqdim edildi. Konfransda təkçə məruzələr dinlənilmədi, həmçinin distansion rejimdə Qazaxıstanın Taraz mərkəzi şəhər kitabxanasından, Belarusiyanın Brest şəhər kitabxanasından,

Estoniyanın Sillamyae Milli kitabxanasından nümayəndələr diskussiyada iştirak etdilər. On- layn sistemdə Bolqariyanın Varna şəhərinin "Penço Slaveykov" kütləvi kitabxanası, Almaniyanın Bremen şəhər kitabxanası maraqlı məruzə ilə çıxış etdi. Konfrans çərçivəsində rus yazıçısı, dedektiv romanlar ustası kimi tanınan Polina Daşkova ilə görüşdə, A.Bersenev və V. Sotnikovun yaradıcılıq gecəsində iştirak etdilər. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə XVI Beynəlxalq Krım konfransında iştirak etmiş, bütün nəşriyyatlar, o cümlədən təhsil nəşriyyatları, proqramlar, xüsusilə İRBİS proqramının əməkdaşları ilə görüşmüşlər. Konfransın "Uşaq və gənclərin informasiya savadlılığı və mütaliə problemləri" mövzusunda keçirilən mühazirələrdə iştirak etmişlər.
AŞ-nın eksperti E.İ.Kuzminin təşkil etdiyi mühazirələr və dəyirmi masada mütaliənin dünya səviyyəsində aşağı düşmə səbəbləri və bu problemin həlli yolları araşdırılmışdır. Ümummilli lider H.Əliyevin 88 illik yubileyi, Müstəqilliyimizini 20-ci ildönümünə həsr olunmuş Uşaq kitabı bayramı keçirilmişdir.




Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Tədbirlər Planının 2.4.1 bəndində respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatı probleminin həlli məqsədilə bölgələrə ezamiyyələr təşkil olunmuş, monitorinqlər keçirilmişdir. Bunu keçirməkdə əsas məqsəd uşaqların mütaliəyə cəlb olunması ilə bağlı qarşıda duran problem məsələlərin aradan qaldırılması və həlli istiqamətində mütəxəssis rəylərinin bir araya gəlməsi idi. Monitorinqin nəticələri Mərkəzi Kitabxana Sistemi direktorları üçün keçirilən "Kitabxana. Oxucu. Mütaliə" mövzusunda seminar müşavirədə açıqlanmışdır.

Son illərdə Dövlət Proqramının həlli istiqamətində atılan addımlardan biri də rayonlarda aparılan monitorinqlər, uşaq kitabxanalarında keçirilən rəy sorğularıdır. Aparılan monitorinqlər, sorğulardan sonra məlum oldu ki, rayon və kəndlərdə uşaq ədəbiyyatı yox dərəcəsindədir. Bu məqsədlə də müstəqilliyimizin 20 illiyi ərəfəsində digər mədəni-kütləvi tədbirlərlə yanaşı, kitab nəşri və təbliğinə həsr edilən görüşlərin, sərgilərin keçirilməsi ilə yanaşı Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə 29 sentyabr-05 oktyabr 2011-ci il "Kitab karvanı: uşaq kitabları İpək yolu ilə" adlı uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisi keçirilmişdi.




## Keçirilən tədbirlər



## Rəqəmsallaşdırma (tammətnli kitablar)




**"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasının rəqəm göstəriciləri**

2013-ci il üçün kitabxananın rəqəm göstəriciləri: kitab fondu - 249834, oxucu - 17028, gəliş - 115600, kitab verilişi - 348950.

**Şöbələr:**

1. Komplektləşdirmə və kitabişləmə şöbəsi.
2. Kitabsaxlayıcı şöbə.
3. Xidmət şöbəsi.
4. Məlumat-biblioqrafiya şöbəsi.
5. Elmi-metodika şöbəsi.
6. Kütləvi işlər şöbəsi.
7. İncəsənət şöbəsi.
8. Avtomatlaşdırma şöbəsi.
9. Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği

**Bölmələr:**

1. Kitabişləmə və kataloq bölməsi.
2. Kiçik yaş qrupu bölməsi
3. Uçot və qeydiyyat bölməsi.
4. Uşaq mütaliəsinə rəhbərlik bölməsi.
5. Beynəlxalq kitabxanalararası abonement bölməsi.

## 2008-2013-cü illər ərzində kitabxana fondunun inkişaf dinamikası






# Retro bazası üzrə




# Elektron kartoteka



# Kitab verilişi. Fondun dövriyyəsi dinamikası

## Kitablar




## Elektron resurslar



# Dövrü mətbuat




## Kitabxanaya gələn oxucuların inkişafı dinamikası






Gəlin kitabxanamızın qısa xranologiyasına nəzər salaq:

**(1976-1979)**

Kitabxananın fəaliyyət dairəsi xeyli təkmilləşmiş, burada kitabişləmə, komplektləşdirmə, kitabsaxlayıcı, xidmət, biblioqrafiya şöbələri və metodkabinet fəaliyyət göstərir. Xidmət şöbəsi iki bölmədən ibarətdir. Birinci bölmə I – III sinif şagirdlərinə, ikinci bölmə isə IV – VIII siniflərdə təhsil alan məktəblilərə xidmət edir. Hər bölmənin də xidmət etdiyi ayrıca oxu zalı vardır. Uzun illərin təcrübəsi göstərir ki, xidmətin yaş qrupları üzrə təşkili həm kitabxana işçiləri, həm də abonentlərin özləri üçün əlverişlidir. Metodika şöbəsi təkcə bakılı uşaqlara xidmət etməklə bitmir. Məlum olduğu kimi, respublikamızda çoxlu uşaq və məktəb kitabxanası fəaliyyət göstərir. Həmin mədəni – maarif müəssisələrinin işçiləri metodik vəsaitlərə həmişə ehtiyac duyurlar. Xüsusən də gənc kitabxanaçılar. Bizim metodkabinetin işçiləri metodik və biblioqrafik vəsaitlər hazırlayıb həmin yerlərə göndərməklə kifayətlənmirlər. Onlar özləri də bilavasitə yerlərdə kitabxana işçilərinə əməli köməklik göstərirlər. Söhbət oxucular üçün bilavasitə kitabxanaeda həyata keçirilən tədbirlərdən düşür. Məlum olur ki, belə tədbirlər zona müşavirələri, kitab sərgiləri, disputlar, görüşlər və s. Müntəzəm təşkil edilir. Kitabxananın oxuculara xidmət mədəniyyətini daha da yaxşılaşdırmağı nəzərdə tutan zəngin pesrpektiv iş planı var. 1965 - ci ilədək respublikamızda uşaq kitabxanalarında çalışan işçilərə kömək edəcək elmi – metodiki mərkəz yox idi. Bu iş həmin ildə yaradılmış F. Köçərli adına resublika uşaq kitabxanasına həvalə olunmuşdur. Şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaq, onların mütaliəsinə rəhbərlik etmək və oxucu

marağını yaxından öyrənmək məqsədi ilə kitabxana məktəblərlə sıx əlaqə saxlamış, oxucuları kitabxanaya cəlb etmişlər. Metodika, biblioqrafiya və xidmət şöbələrinin kollektivləri öz işlərini günün müasir tələbləri səviyyəsində qurmuşlar. Kitabxanada "Bacarıqlı əllər", "Kitab dostları" və "İncəsənəti sevənlərə " adlı dərnəklər də fəaliyyət göstərirdi.

**(1980-1984-1985-1987-1988)**

Kitabxana indiyədək mənəvi sərvət saydığımız kitabın təbliği sahəsində xeyli iş görmüşdür. F. Köçərli adına respublika uşaq kitabxanasının kollektivi kəndlərdəki uşaq kitabxanalarına hərtərəfli metodiki yardım göstərir.Kitabxananın əməkdaşları respublikanın 60 rayonunda mütərəqqi iş üsullarını təşkil etmiş, oxucularla geniş söhbətlər aparmış, müasir üsullarla uşaq kitabxanalarının oxucularının təlimatlandırılması məsələlərini müzakirə etmişdir. Kitabxana M. F. Axundov, C. Cabbarlı və B. Belinski adına kitabxanalarla birlikdə bir neçə dəfə "Uşaqlar bizim gələcəyimizdir" mövzusunda təlimati müşavirələr, elmi söhbətlər keçirmişdir. Həmin seminarların nəticəsi və mövzuları kənd uşaq kitabxanalarında müzakirə edilmişdir. Kitabxanamız əsasən kənd əhalisinin uşaqlarına uşaq kitabxanalarından səmərəli istifadə etmək üsullarını öyrədirdi. Kitabxananın oxucularının sayı 12650 nəfər olmuşdur.

**1989 - cu il**

F. Köçərli adına respublika uşaq kitabxanasında nəşriyyatın yaradıcı kollektivi ilə görüş keçirilmiş, 1989-cu ilin tematik plan layihəsi müzakirə edilmişdir. Bu tədbirlər oxucuların estetik zövqünün formalaşmasında əhəmiyyəti böyükdür. 1989-cu ildə baş tutan tematik plan layihəsini kitabxana işçiləri bəyənmişlər.

F. Köçərli adına Respublika Uşaq Kitabxanası "Uşaq ədəbiyyatı biblioqrafiyası" adlı biblioqrafik göstərici tərtib etdi. Göstəricinin tərtibçisi məlumat – biblioqrafiya şöbəsinin müdiri Zahirə Dadaşova, redaktoru şair Knyaz Aslan idi. 1985- 1990 - cı illərdə çapdan çıxmış uşaq ədəbiyyatını əks etdirən bu göstərici 3 hissəyə ayrılır:

1. kiçik yaşlı uşaqlar üçün ədəbiyyat

2. orta yaşlı uşaqlar üçün ədəbiyyat;

3. Böyük yaşlı uşaqlar üçün ədəbiyyat.

**1990-cı ildə** – F.Köçərli adına RUK-sı C.Cabbarlı adına RGK-sı ilə "Kitabxana-biblioqrafiya biliklərinin təbliği" mövzularında birgə Salyan, Göyçay rayonlarında dəyirmi masa;

**1998- ci il də** kitabxananın bu illərdə 81 nəfər işçisi var idi. Fondda 210000 qərərgah var. İl müddətində 25000 oxucuya təxminən dövrü olaraq 560000 kitab verilirdi.

**2001-ci ildə** "Açıq Cəmiyyət" İnstitutunun Təlim və İnformasiya Mərkəzinin ixtisasla bağlı təşkil etdiyi kurslarda iştirak etmiş, yeniliklərlə tanış olmuş və öz işlərində tətbiq etmişlər;

**2002-ci ildə** "Qafqaz" Ərazi İxtisasartırma Mərkəzinin şöbənin işçiləri ixtisasla bağlı təşkil etdiyi seminarda iştirak etmişlər;

F. Köçərli adına Dövlət Uşaq Kitabxanasında 1 il əvvəl ABŞ – da yaşanan 11 sentybr terror hadisəsinin qurbanları anılıb. Kitabxanada terrorla bağlı kitab və qəzet materiallarından ibarət sərgi və "Terrorizmə qarşı mübarizə adlı rəsm müsabiqəsi təşkil edilib. Sərgi 5 mövzunu: "Nüvə terroru", "Ekologiya", "Təbiət köməyə çağırır", "Dünyanı gözəllik xilas edəcək" və "Dünyanın səsi, sülhün qüvvəsi" mövzularını əhatə edirdi.

**2004-cü ildə** yazılan elmi işlər: "Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsində uşaq kitabxanaların rolu", "Azərbaycanlılara qarşı iki əsr davam edən genosid" (31 mart Azərbaycanlıların soyqırımı günü)
Kitabxana bu illərdə 3 layihə həyata keçirib. SOROS fondu Açıq Cəmiyyətİnstitutu ilə birgə həyata keçirilən layihələr əsasında kitabxanada internet- klub təşkil edilib. Kiçik oxucular üçün multi – media zalı açılıb, uşaqlar kitabların bərpası işinə cəlb edilmiş və onlara kompyuterlərdən istifadə qaydalarını mənimsəmək üçün xüsusi treninqlər təşkil edilib.

**2005-ci ildə** "Hərb tariximizin şanlı səhifəsi", "Uşaq kitabxanalarında asudə vaxtın təşkili", "Oxucuların mənəvi-əxlaqi və estetik tərbiyəsində uşaq kitabxanaların rolu" metodik vəsaitlər;

**2007-ci ildə** 30 may-1iyun "Ekoloji tərbiyə və ekoloji problemler: kitabxanaların rolu" beynəlxalq konfransda iştirak etmiş və "Uşaq kitabxanaları və ekoloji tərbiyə" adlı metodik vəsait yazılmışdır;

Zaqatala rayonunda "AİDS-lə mübarizəyə qarşı", Masallı rayonunda uşaq hüquqlarının qorunması ilə bağlı "Hüquqlarımızı biləndə" seminar-müşavirədə iştirak edib;

2007-ci il mayın 29-31-də Azərbaycanın dilbər guşəsi olan Zaqatalada "Ekoloji mədəniyyət. Ekoloji problem... Kitabxanaların rolu" beynəlxalq konfrans keçirildi. Beynəlxalq konfransda kitabxanaların ekoloji tərbiyə ilə bağlı apardıqları işlərdən danışıldı. Kitabxananın direktoru, jurnalın təsisçisi Fizurə xanım "Göy qurşağı" jurnalının təqdimatını keçirdi. Rusiyadan gələn həmkarlarımız jurnalın materialları ilə tanış oldular. Konfransın gedişatı göstərdi ki, doğrudan da ekoloji problem qlobal xarakter daşıdığından kitabxanaçılar, məktəblilər bunun qarşısını almaq üçün çox böyük işlər görə bilərlər. 2007-cı ilin may ayında Azərbayan Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun səhiyyə proqramı çərçivəsində Bakı məktəblərində (5, 91, 45, 42, 36, 35, 153, 7 saylı məktəblərdə, XXI əsr liseyində, rabitə kollecində) təşkil olunmuş mühazirə-treninqlərdə şagirdlər dünyanın bəlası olan AIDS ( Acquired Immune deficit Syptoms) xəstəliyini törədən HIV (Human Immune deficit Virus ) virusunun tarixini, yoluxma mənbələrini, ondan qorunma vasitələrini öyrəndilər. AIDS və HIV haqqında əldə etdikləri bilikləri sorğu-anket vasitəsilə yoxladılar. Məktəblilər həm də bu xəstələrə qarşı daha xeyirxah olmağı və onlara qayğı göstərməyin vacıbliyini bir daha bildilər. Axı onlar da cəmiyyətin hər bir üzvü kimi yaşamaq hüququna malikdirlər.

**2008-ci ildən** hal-hazırki ilə qədər "Krım-2008" Beynəlxalq konfrans keçirilir və kitabxana işçiləri həmin konfransda iştirak edirlər;

"Milli adət-ənənələrin, bayram və tarixi günlərin uşaq kitabxanalarında təbliği", "Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik", "Məktəbli oxucuların vətənpərvərlik tərbiyəsi" metodik vəsaitlər;

**2009-cu ildə** uşaq ili ilə bağlı Quba rayonunda seminar (Krim-2009)

2009-cu il ölkəmizin tarixinə daha uğurlu zəmin üzərində – ölkəmizin iqtisadi inkişafında mühüm rol oynayan iqtsadi inkişaf proqramlarının həyata keçirilildiyi, xalqın maddi rifahının yüksəldiyi, təhsil sahəsində islahatların həyata keçirildiyi, Azərbaycanın Boloniya sisteminə daxil olduğu və bununla da ölkəmizin təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya etdiyi, Qarabağ probleminin həllində müəyyən addımların atıldığı, elektron kommunikasiya texnologiyalarının daha geniş tətbiqinə başlandığı bir il kimi qədəm qoydu. 2009-cu il kitabxana sahəsi üçün ona görə uğurlu oldu ki, "Azərbaycan Respublikasının kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda kitabxanaların geniş inkişafı ilə bağlı böyük tədbirlər həyata keçirilməyə başladı. Belə böyük quruculuq işləri getdiyi bir dövrdə gənc nəslin tərbiyəsi, hərtərəfli inkişafı məsul bir vəzifə kimi qarşıda durdu. Bu

vəzifənin yerinə yetirilməsində, məktəbli uşaq və yeniyetmələrin zamanın fövqündə yetişdirilməsində böyük rolu olan kitabxanalar da bu işdə yaxından iştirak etdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 dekabr 2008-ci ildə uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 2009-cu ilin Azərbaycan Respublikasında "Uşaq ili" elan edilməsi ilə bağlı sərəncamına əsasən kitabxananın əməkdaşları nəzərdə tutulan plan üzrə müxtəlif rəngarəng tədbirlərlə liseylərdə, məktəblərdə, uşaq evlərində, uşaq bağçalarında, gimnaziyalarda oz oxucularını sevindirmişdir.

2009-cu il ərzində uşaqlar üçün onların sevdikləri ən maraqlı azərbaycan nağıllarının elektron variantı hazırlanaraq kitabxanamızın WEB saytının elektron nəşrlərində (www.clb.az) öz əksini tapmışdır. Həmçinin kitabxananın təsis etdiyi “Göy qurşağı” jurnalı respublikanın ən ucqar nöqtələrində belə oxunmaqla bütün yaş qrup oxucularının maraq dairəsini əhatə etmişdir. Belə ki, təkcə əlyazma kitablarının müsabiqəsində bölgələrdən 100-ə yaxın oxucu iştirak etmişdir.

Aprelin 2-də oxu zalında Beynəlxalq Uşaq Kitabı günü münüsibəti ilə “Mənim sevimli kitabım” adlı əlyazma kitabları hazırlamaq üzrə müsabiqə keçirilmiş, qaliblər mükafatlandırılmış, fəxri diplomlara da layiq görülmüşlər. Həmin oxucular kitab bayramında yaxından iştirak etmişdir.

27 may 2009-cu ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə əlaqədar “Azadlıq günəşimizin ziyası“ adlı inşa, “Azərbaycan deyiləndə ayağa dur ki...” şeir müsabiqəsi keçirmiş, qaliblər mükafatlandırılmışdır. Müsabiqədə uşaqlar Azərbaycana, vətənə, üçrəngli bayrağa həsr olunmuş şeirlər söyləmişlər.

14 fevral 2009-ci ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası SOS Uşaq Kəndində 2009-cu il – Uşaq İlinə həsr olunmuş I Milli Uşaq Kitabı Sərgisinin açılışı olmuşdur. SOS uşaq kəndində yerləşən uşaq bağçasının böyük zalında 30 adda kitab sərgiləri, həmçinin “Mənim nağıl dünyam “adlı rəsm və əl işlərinin müsabiqəsi üzrə sərgilər təşkil olunmuşdur.

Aprelin 2-də F.Köçərli adına Respublika Uşaq Kitabxanası Quba rayonunda 2009-cu il – Uşaq İlinə və 2 aprel – Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunmuş Uşaq Kitabı bayramı keçirdi. Quba şəhərinin mərkəzi meydanında müxtəlif adda kitab sərgiləri- “Heydər Əliyev və uşaqlar”,“Bir dünya təbəssüm, bir dünya sevinc”,“Göydən üç alma düşdü”,“Biri var idi, biri yox idi”, “Təbiət bizim evimizdir”, “Mənim nağıl dünyam”, “Sirli sehrli nağıllar aləmində”, “Sənin maraq dünyan”, “Mənim sevimli kitablarım”, “Nənələrin boxçasından”, “Bakı- İslam mədəniyyətinin paytaxtı (2009)”, “Sənin qəzet və jurnalların”, “Milli dəyərlərimizi qoruyaq”, “Çox oxuyan, çox bilər”, “Bizə uşaqlığımızı qaytaran kitablar”, “Unudulmuş kitablar” və s. təşkil olunmuşdu. Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm

Nazirliyi Kitabxana sektorunun əməkdaşları, Quba Rayon İcra Hakimiyyətinin başçısı R.Həbibov, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları iştirak edirdi. Uşaqların sevimli nağıl qəhrəmanlarından Tıq-Tıq xanım, Siçanqulu bəy, Div, Cırtdan, Göyçək Fatma, Məlikməmməd faytonla meydana gələrək uşaqları bayram münasibətilə təbrik etdilər. Uşaq yazıçı və şairlərindən - Ələmdar Quluzadə, Nüşabə Məmmədli, Zahid Xəlil, Sevinc Nuruqızı, Gülzar İbrahimova və b. uşaqlarla görüşdülər, kitablarından uşaqlara hədiyyə verdilər. Milli geyimdə 2 oxucu uşaqların arasında "Boxçadan suallar" adlı viktorina keçirdi. Suallara cavab tapanlar kiçik hədiyyələrlə mükafatlandılar.

"Mənim dünyam "rəsm müsabiqəsinin qalibləri diplom və hədiyyələrlə mükafatlandılar. F.Köçərli adına Respublika Uşaq Kitabxanası Quba rayon uşaq kitabxanasına 60 nüsxə uşaq kitabları hədiyyə etdi. Tədbir bütün televiziya kanallarında işıqlandırıldı.

II Uşaq Kitabı Festivalının açılışı 14 mayda dahi Nizaminin abidəsi önündə oldu. Meydan əlvan bayraqlar, şarlarla, festivalın emblemi, kitablar haqqında hikmətli sözlər yazılmış şüarlarla bəzədilərək uşaqların diqqətinə çatdırıldı. 30 adda kitab sərgiləri təşkil olundu. Tədbiri giriş sözü ilə kitabxananın direktoru F.Quliyeva açaraq uşaqları elmə, biliyə yiyələnməyə, kitabxanalara üzv olmağa, çoxlu kitab oxumağa, mütaliə etməyə səslədi. Festivalın digər günləri ilə bağlı iştirakçıları məlumatlandırdı. Sonra isə Mədəniyyət və Turizm Naziri Ə.Qarayev, Səbael rayon İcra Hakimiyyətinin başçısı Sahib Ələkbərov, Ombusman Elmira Süleymanova və digər qonaqlar çıxış etdilər. Festivalda iştirak edənlərin yaxasına döş nişanları taxıldı. Asfalt üzərində uşaqlar rəsmlər çəkdilər.

Uşaqlar çox sevdikləri nağıl qəhrəmanlarının geyimində tədbirə gələrək nağıllara olan sevgilərini bildirdilər. "Unudulmuş kitablar"ın paradı keçirildi. Tədbir ssenari üzrə başladı. Uşaqların ifasında maraqlı səhnəcik göstərildi. Tədbirdə uşaq təşkilatlarından O.Zülfüqarovun"Aysel" qrupu, A.Şaiq adına Kukla Teatrı, Uşaq Filarmoniyası, T.İsmayılov adına Uşaq və Gənclər Yaradıcılıq sarayı, S.Vurğun adına Rus Dram Teatrı, Ş.Qurbanov adına Musiqili Komediya Teatrı iştirak etdi. Uşaqlar arasında viktorina keçirildi, suallara düzgün cavab tapanlar hədiyyə qazandılar. Nağıl qəhrəmanları uşaqların görüşünə gələrək onları bayram münasibətilə təbrik etdi.Uşaqlar öz sevimli uşaq yazıçı və şairləri – Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Zahid Xəlil, Solmaz Amanova, Nüşabə Məmmədli, Gülzar İbrahimova, Gülarə Munis, Sona Xəyal və Səadət Qarabağlı, həmçinin uşaq kitabları çap edən nəşriyyatların redaktorlarından Qəşəm İsabəyli, Rafiq İsmayılov, Nərgiz Cabbarlı, Akif Dənziyev ilə görüşdülər. "Kitab köşkü"ndə uşaq kitablarının satışı M.Seyidzadə adına mərkəzi şəhər kitabxanasının nəzdində açılmış kitab mağazası tərəfindən təşkil olundu.

18 may 2009-cu ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası II Uşaq Kitabı Festivalı çərçivəsində SOS Uşaq Kəndinin uşaq baxçasında "Oxuyan avtobus"la Nağılların səyahəti təşkil edildi. Nağıl

qəhrəmanlarından Tıq-Tıq xanım, Göyçək Fatma şəkillərlə bəzədilmiş avtobusdan düşərək uşaqların(78 nəfər) əhatəsində zala daxil oldular. Tədbirdə uşaqların sevimli yazarlarından biri olan Gülzar nənə də iştirak edirdi. Keçirilən viktorina, sual-cavab uşaqların çox xoşuna gəldi. Viktorinada suallara düzgün cavab tapanlar hədiyyə qazandılar. Həmiçin uşaqlar öz sualları ilə Gülzar nənənin yeni nağıllarından xəbərdar oldular və çox sevdikləri şeirlərini söylədilər. Tədbirdə iştirak edən bütün iştirakçılara kitablar, jurnallar hədiyyə edildi. Gülzar xanım öz kitablarından və "Bala dili" jurnallarından uşaqlara hədiyyə etdi.

20 may 2009-cu ildə Azərbaycan Respublikası Milli Konservatoriyanın tərkibində Respublika İncəsənət Gimnaziyasında II Uşaq Kitabı Festivalının incəsənət günü keçirildi. Xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 100 illiyinə həsr olunan "Təbiət ilhama çağırır bizi" adlı rəsm müsabiqəsinin qalibləri diplom və hədiyyələrlə mükafatlandılar. Onların imperisionist stildə çəkdiyi şəkillər münsiflər heyəti tərəfindən alqışlandı. Tədbirdə S.Bəhlulzadənin tələbəsi Əlisəttar- Azərbaycanın əməkdar rəssamı, S.Bəhlulzadənin büstünü düzəldən Nəriman Məmmədov, əməkdar rəssam Namiq Dadaşov, Media və Təhsil İnnovasiyaları İctimai Birliyinin nümayəndələri və sədri – Azərbaycan Jurnalistlər Birliyinin üzvü Səidə Hüseynova və digər qonaqlar iştirak edirdi. Tədbir konsert proqramı ilə başa çatdı, festivalın kiçik hədiyyəsi və diplomu qaliblərə təqdim edildi.

21 mayda II Uşaq Kitabı Festivalının bağlanışı İRC-nın(İnformasiya Resurs Mərkəzi) təlim zalında və Türk folklor mərkəzinin köməkliyi ilə "Milli dəyərlərimizi qoruyaq, nağılları yaşadaq : Kitabxana və oxucu" adlı əl işlərinin sərgisini keçirdi. Kitabxananın direktoru tərəfindən II Uşaq Kitabı Festivalında fəal iştirakına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev tərəfindən işçilərə verilən fəxri fərmanlar təqdim edildi. Tədbirdə "Yazıçı Qadınlar" jurnalının baş redaktoru, yazıçı Nüşabə Məmmədli, Ü.Hacıbəyovun tədqiqatçısı Səadət Qarabağlı, 132 saylı məktəbin III sinif şagirdləri, Zəngilan məktəbliləri, 287 saylı Zəkalar liseyinin şagirdləri iştirak edirdi. Tədbirdə 158 saylı məktəbin VII sinif şagirdi Məmmədova Nərgizin, kitabxananın əməkdaşı Kəbirə Əmiraslanova və Zahirə Dadaşovanın nağıllarımızla bağlı əl işləri sərgiləndi. Şagirdlərin ifasında vətənə, kitaba, müəllimə aid şeirlər söyləndi.

**2010-cu il** "Ekologiya ili" ilə əlaqədar olaraq rayon və kənd kitabxanalarında aksiyalar keçirmiş, ekoloji pasport tərtib olunub göndərilmişdi. "Uşaq kitabxanalarında uşaq hüquqlarının təbliği";

Azərbaycan Respublikasında " Ekologiya ili" elan etməsi ilə bağlı kitabxanamız tədbirlər planı üzrə rəngarəng tədbirlərlə liseylərdə, məktəblərdə, uşaq evlərində, uşaq bağçalarında, gimnaziyalarda oz oxucularını sevindirmişdir. Azərbaycanda fəaliyyət göstərən uşaq kitabxanalarında ekoloji pasportun hazırlanması məqsədilə tövsiyyələr verilmiş, hazırlanaraq bütün kitabxanalara göndərilmişdir.

21 may 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Xaçmaz rayonunda 2010-cu il ekologiya ilinə həsr olunmuş ekoloji kitab bayramı keçirildi.Tədbiri keçirməkdə məqsədimiz təkcə ekologiyaya deyil, müxtəlif mövzulara dair ədəbiyyatın ictimaiyyətin diqqətinə çatdırılması, kitab bayramı ilə mütaliəyə maraq yaratmaq idi. Bu məqsədlə Xaçmaz rayonunda İstirahət parkı bayraqlar, şarlar, ekologiyaya aid ulu öndərimizin, prezidentimizin müdrik kəlamlarla olan plakatları ilə bəzədilmişdi. İstirahət parkının hər iki girəcəyində ekoloji kitab bayramının emblemi qoyulmuşdu. Parkın ərazisində müxtəlif mövzularda kitab sərgiləri ("Müstəqilliyimiz əbədidir, dönməzdir", "Təbiəti qorumaq Vətəni qorumaq deməkdir", "Dünyanı, Təbiəti, insanları qoruyaq!", "Nə qədər gözəlsə bu meşə, bu dağ, İnsansız təbiət yetim kimidir." Nəbi Xəzri", "Mənim nağıllı dünyam", "Təbiəti sevək, qoruyaq", "Sağlam həyat tərzi keçirək", "Ekologiya və biz", "Təbiət bizim evimizdir", "Yeddi rəngli kəmərim", " Təbiət - ən qiymətli kitabdır" və s.) təşkil olunmuşdu. Həmçinin "Ekologiya və biz" adlı rəsm müsabiqəsi üzrə göndərilən rəsmlərin sərgisi təşkil olunmuşdu. Tədbirdə iştirak edən bütün uşaqlara tədbirin emblemi çəkilmiş döş nişanları paylandı. Ekoloji kitab bayramında Mədəniyyət və Turizm nazirinin müavini Sevda xanım Məmmədəliyeva, nazirliyin kitabxana sektorunun müdiri Lətifə xanım Məmmədova, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı İlqar Ağabalayev, Xaçmaz rayon İcra Hakimiyyəti başçısı Şəmsəddin Xanbabayev, Icra nümayəndələri, Xaçmaz rayon Mədəniyyət və Turizm şöbəsinin işçiləri, bütün kitabxanalar, məktəblər, uşaq baxçaları, KİV nümayəndələri iştirak edirdi. Üç gün öncə keçirilmiş "Yurdumuzu gülüstana çevirək" adlı aksiyada Zərifə Əliyeva adına 8 saylı liseyin yuxarı sinif şagirdləri iştirak edərək zibilliklə olan geniş ərazini təmizləmiş və tədbirdə onların foto şəkilləri olan sərgisi nümayiş olundu. Uşaq yazıçı və şairlərindən Ələmdar Quluzadə, Zahid Xəlil, Sevinc Nuruqızı, Nüşabə Məmmədli və başqaları iştirak edirdi. KİV nümayəndələrindən: Mədəniyyət qəzetləri və Elli, Göyərçin, Bala dili jurnalları iştirak edirdi. Xaçmaz rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Nazim Ağayev giriş sözü ilə çıxış edərək ekoloji kitab bayramını açıq elan etdi. Tədbirin simvolik sulh rəmzi olan göyərçinlər və şarlar havaya qalxdı. Sonra nağıl qəhrəmanları uşaqların görüşünə gələrək onları kitab bayramı münasibətilə təbrik etdi, ana təbiətə qayğı ilə yanaşmaqdan, torpağa olan məhəbbətdən söz açdılar. Kiçik yaşlı uşaqlar kitab, təbiətin mühafizəsi ilə bağlı şeirlər söylədilər, mahnılar oxudular.

Kitabxanaçılar təbiətdə davranış qaydaları ilə bağlı kiçik yaşlılarla viktorina keçirdi və viktorinada suallara düzgün cavab verənlər kiçik hədiyyələrlə mükafatlandırıldı. Tədbirin sonunda **"Ekologiya və biz"** adlı rəsm müsabiqəsi üzrə qaliblər elan olundu, diplom və hədiyyələrlə mükafatlandırıldı. Ekologiyamızın qorunması ilə əlaqədar "**Planetin ən yaxşı müdafiəçisi**" adlı aksiya keçirilmişdir. Aksiyanı keçirməkdə məqsədimiz istifadə olunmuş, köhnəlmiş, atılası batareyaların yığılması idi.

Həmin il oxucularda informasiya tələbatını öyrənmək və mütaliəyə marağı artırmaq məqsədilə elmi konfrans keçirildi. Şöbə Bakı şəhəri uşaq kitabxanaları-13 kitabxana, 128 oxucu üzrə monitorinqlər keçirmiş, rəy sorğuları həmin kitabxanalara paylanaraq oxucu fikirlərini araşdırmışdır. Elmi konfransada monitorinqin nəticələri müzakirə olunmuş və konfrans iştirakçılarına "Mütaliəyə cəlb etmənin yeni formaları" vəsaiti təqdim olunmuşdur. 28 noyabr- 21 dekabr 2010-cu il tarixində "Mütaliə və müasir kitabxana" mövzusunda kitabxananın elmi-metodika şöbəsi tərəfindən Bakı şəhərinin 13 uşaq kitabxanası arasında monitorinqlər keçirilmiş, rəy sorğuları hazırlanaraq həmin kitabxanalara paylanmış, oxucuların mütaliə ilə bağlı fikirləri araşdırılmışdır. Rəy sorğusunun nəticələri 24 dekabr 2010-cu ildə oxucularda informasiya tələbatını öyrənmək və mütaliəyə marağı artırmaq məqsədilə kitabxanamızda keçirilən elmi konfransda açıqlanmışdır. Yay tətili günlərində kitabxana "Yay oxu zalı" ilə Zabitlər Parkında fəaliyyət göstərmiş, oxuculara xidmət etmişdir. Həmçinin Zağulba qəsəbəsində yerləşən Respublika Uşaq Sanatoriyasında səyyar yay oxu zalı təşkil olunmuşdur. 57 uşağın müalicə aldığı bu sanatoriyada təşkil olunan səyyar oxu zalında uşaqlar hər gün səhər və axşam yeməyindən sonra istədikləri kitabları götürüb mütaliə etmişlər. Sanatoriyanın kiçik yaşlıları arasında "Gəlin, nağıla qulaq asaq"adlı ucadan oxu keçirilmiş, viktorina təşkil olunmuşdur. Viktorinanın qalibləri mükafatlandırılmış, 300-dən çox kitab sanatoriyanın kitabxanasına hədiyyə edilmişdir.

**Krım 2010 Beynəlxalq Konfrans**

Müstəqilliyimizin 20 illiyi və Turizm ili ilə əlaqədar maraqlı tədbirlər keçirilmiş, televiziya kanalları vasitəsilə işıqlandırılmışdır. Kitabxanamızın əməkdaşları Krım, Lipetsk konfranslarda iştirak etmiş, öz çıxışları ilə MüstəqilAzərbaycanımızın kitabxana sahəsindəki uğurlarını dünya ictimaiyyətinə çatdırmışdır. İsveçrə, Rusiya, Türkiyənin 9 bölgəsi, Ukrayna, Almaniya, Bosniya, Herseqovinya, Sloveniya, Moldova , Serbiya, Gürcüstan ölkələrinin şəhərlərinin kitabxana cəmiyyətləri ilə müqavilə bağlanmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. uşdu.

20 yanvar faciəsinin 20-ci ildönümü ilə əlaqədar "Müstəqilliyə aparan yol" adlı anım gecəsi, məktəblərdə "Qan yaddaşımız"la bağlı yaddaqalan tədbirlər keçirilmişdir.

2010-cu il mayın 6-da kitabxananın oxu zalında alman uşaq ədəbiyyatı sərgisi keçirdi. Tədbirdə Almaniyanın Azərbaycandakı səfirinin müavini Tomas Veys, səfirliyin mədəniyyət şöbəsinin nümayəndələri, KİV nümayəndələri, kitabxana işçiləri, çoxlu sayda məktəblilər iştirak edirdi. Tədbiri keçirməkdə məqsəd alman mədəniyyətinin təbliği, uşaq ədəbiyyatı nümunələrinin daha aydın şəkildə göstərilməsi, ona maraq yaratmaqdan ibarət idi. Sərgidə müasir alman uşaq ədəbiyyatı oxucuların diqqətinə çatdırıldı. Alman bəstəkarı İ.Baxın musiqisi altında kitabların təqdimatı , yəni kitabxanada olan alman uşaq ədəbiyyatı nümunələri, alman uşaq yazıçıları haqqında geniş məlumat verildi. Almaniyanın Azərbaycandakı

konsulu Tomas Veys çıxışında kitab sərgisinin məhz səfir Per Kristofer Stançinanın təşəbbüsü ilə kitabxanada sərgiləndiyini vurğuladı və qeyd etdi ki, Almaniyadan gətirilən bu kitablar(37 adda) sərgidən sonra kitabxananın fonduna hədiyyə ediləcəkdir. Tədbir iştirakçıları alman uşaq ədəbiyyatı sərgisi lə bağlı suallarla səfirin müavininə müraciət etdilər, öz fikirlərini bildirdilər.

4 iyun 2010-cu ildə kitabxananın oxu zalında "Mən dünyamı çəkirəm, sizə ərməğan edirəm" rəsm müsabiqəsinin qalibləri elan edildi. Tədbirdə valideynlər, müəllimlər, şagirdlər iştirak edirdi. Tədbir iştirakçıları "Təbiətdə davranış qaydaları", "Həyatımız təhlükədədir" adlı təqdimatlara baxdılar, müsabiqəyə göndərilən bütün şəkillərlə tanış oldular. Qaliblər mükafatlandırıldı.

24 dekabr 2010-cı ildə Bakı şəhər uşaq və məktəb kitabxanaçıları üçün "Kitabxanaya uşaqların cəlbi: Mütaliə haqqında düşüncələr" mövzusunda elmi konfrans keçirdi. Konfransda 46 nəfər iştirak edirdi. Konfransda yazıçılar da çıxış etdilər, öz təkliflərini söylədilər. Bütün konfrans iştirakçıları tərəfindən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayevə müraciət qəbul olundu.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın Tədbirlər Planının 2.4.1 bəndində respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatının ödənilməsi ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Müstəqilliyimizin 20 illyinə həsr olunmuş 29 sentyabr-05 oktyabr 2011-ci il tarixində "Kitab karvanı: Uşaq kitabları İpək yolu ilə " adlı uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisi keçirdi. Tədbirdə Goranboy, Gəncə, Şəmkir, Tovuz, Qazax, Ağstafa rayonlarının uşaq kitabxanalarına nəşriyyatların, yazıçıların, Amerika səfirliyinin uşaq kitabları ilə köməkliyi nəzərdə tutulmuşdu. Tədbiri keçirməkdə əsas məqsədimiz: rayonlarda keçirilən monitorinqlərdən sonra respublikanın şəhər və rayon Mərkəzi Kitabxana Sistemində və filiallarında uşaq ədəbiyyatının azlığını nəzərə alaraq, səyyar sərgilər vasitəsilə uşaq ədəbiyyatına olan marağı yüksəltmək, uşaqları mütaliəyə cəlb etmək; Kitab sərgilərinin keçiriləcəyi həmin rayonların kəndlərində kitabxanalararası abonement vasitəsilə il ərzində uşaqların oxu ehtiyacını təmin etmək; Kitab karvanı keçən yerlərdə ictimaiyyətin diqqətini bu məsələyə yönəltmək; Uşaqların asudə vaxtlarının təşkilində böyük xidmətləri olan kitabxanaların müsbət imicinin artmasına kömək etmək idi.

F.Köçərli adına Respublika Uşaq kitabxanası səyyar sərgilərdə nümayiş olunan kitabları və uşaq mətbu orqanı olan dərgiləri (920 nüsxə ) tədbirin emblemi yapışdırılmış bağlamanı rayon Mədəniyyət və Turizm şöbələrinin müdirlərinə təqdim etdilər. Altı rayon üzrə təşkil olunmuş sərgilərdə təxminən 7000-ə yaxın uşaq iştirak etdi. Həmçinin uşaqlar səyyar

sərgilərin nümayişində uşaq kitablarını çap edən nəşriyyat işçiləri, sevimli yazıçı və şairləri ilə də görüşdülər. Səyyar sərgilər Şəmkir və Ağstafa rayonlarında Heydər Əliyev mərkəzində,Tovuzda Bayraq meydanında, digər rayonlarda isə Heydər Əliyev adına parkda təşkil olunaraq rəsmi, bədii hissədə yüksək səviyyədə keçirildi. Kiçik yaşlılar arasında "Tap görüm" adlı viktorina keçirilərək, qaliblər kiçik hədiyyələrlə mükafatlan-dırıldı. Həmçinin rayon üzrə keçirilən rəsm müsabiqəsi qaliblərinin rəsmləri sərgiləndi. Tədbirdə rayon uşaq kollektivləri çıxış edərək bayrama musiqi nömrələri ilə rəng qatdılar.

**2011-ci il** Turizm ili ilə əlaqədar "Zirvələrdən üzü bəri gəlir məğrur Azərbaycan"merodik vəsait, Müstəqilliyimizin 20 ili ilə əlaqədar "Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir" metodik vəsait;

6 rayonu üzrə təşkil olunmuş (Goranboy,Gəncə,Şəmkir,Tovuz, Qazax, Ağstafa) "Kitabı karvanı: İpək yolu ilə" tədbirdə metodistlərin iştirakı;

Rusiyanın Lipesk şəhərində keçirilən "V Bələdiyyə kitabxanalarının informasiya resurslarının şəhərin inkişafında qolu. Təcrübə və perspektivlər" adlı "Mütaliə" konfransında iştirak ediblər.

İon Kryange adına Moldaviya Milli Uşaq Kitabxanasına elmi ezamiyyə və iş təcrübəsi yerinə yetirildi və bu mövzuda elmi metodiki vəsait işlənib, Azərbaycanın 60 rayonunda yerləşən uşaq kitabxanalarına göndərildi.

Müstəqilliyimizin 20 illiyi və Turizm ili ilə əlaqədar il ərzində maraqlı tədbirlər keçirilmiş, televiziya kanalları vasitəsilə işıqlandırılmışdır. Kitabxanamız beynəlxalq - Krım, Lipetsk konfranslarda iştirak etməklə Müstəqil Azərbaycanımızın respublika uşaq kitabxanasının uğurlarını dünya ictimaiyyətinə çatdırmışlar. İsveçrə, Türkiyə, Ukrayna, Almaniya, Bosniya, Sloveniya, Moldova ölkələrinin şəhərlərinin kitabxana cəmiyyətləri ilə müqavilə yaradılmış, həmin ölkələrə Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir.

2011-ci ilin "Turizm ili" elan olunması ilə əlaqədar olaraq şöbənin metodistləri "Zirvələrdən üzü bəri gəlir məğrur Azərbaycan" və müstəqilliyimizin 20 illiyi ilə əlaqədar "Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimiz" adlı geniş vəsait işləmişdir. Bu vəsaitlər republika rayon uşaq kitabxanalarında çalışan kitabxanaçılara kömək məqsədilə göndərilmiş, bundan əlavə kitabxanamızda bu mövzu ilə bağlı keçirilən bir sıra tədbirlərdə metodistlər yaxından iştirak etmişdir. Elmi-metodika şöbəsi il ərzində Yevlax, Kürdəmir, Ağsu, Salyan, Zaqatala, Şəki, Astara, Beyləqan, Yardımlı rayon MKS-nin uşaq şöbələrinə ezamiyyələr təşkil edərək rayon uşaq kitabxanaılarına lazımi köməklik göstərmiş, belə ki, "Turizm İli"

haqqında və müstəqilliyimizin 20 illiyi ilə bağlı kitabxanaçılara sərgilərin təşkilində, mövzu ilə əlaqədar keçirilən tədbirlərin hazırlanmasına da öz köməkliyini əsirgəməmişdir. Bu mövzuya əsasən yazılmış "Kitabxana, mütaliə və oxucu" elmi-tədqiqat işi rayon uşaq kitabxanalarına göndərilmişdir.

2011-ci ildə Mədəniyyət Turizm Nazirliyinin təşəbbüsü ilə Bosniya və Hersoqovinianın "Dervis Susic" Kütləvi və Universitet kitabxanası ilə F.Köçərli adina Respublika Uşaq Kitabxanası "Qardaşlaşmış Kitabxanalar"elan olunub. Bu kitabxanaların birgə əlaqəsi nəticəsində beynəlxalq KAA bölməsi öz işini daha da genişləndirmişdir. Beynəlxalq KAA bölməsi Qasprinski adına Krım Tatar Kitabxanası, İon Kryange adına Moldaviya Milli Uşaq Kitabxanası, Ukrayna Milli Uşaq Kitabxanası, Serbiya kitabxanası və Türkiyənin bir çox kitabxanaları ilə, İsveçin Göteborq şəhər Kitabxanası və Stokholm Beynəlxalq kitabxanası ilə də beynəlxalq əlaqələr yaratmışdır. İon Kryange adına Moldaviya Milli Uşaq Kitabxanasına- 117 nüsxə, Serbiya kitabxanasına -71nüsxə, Ukrayna Milli Uşaq Kitabxanasına- 91nüsxə, İsveçin Göteborq Şəhər Kitabxanasına və Stokholm Beynəlxalq Kitabxanasına- 109 nüsxə, Bosniya və Hersoqovinianın "Dervis Susic" Kütləvi və Universitet kitabxanasına-109 nüsxə, Kadıköy Belediyyesi Muhtar Özkaya Halk Kütübhanesinə - 27 nüsxə, Ankara Adnan Ötükən İl Halk Kütübhanesinə-27 nüsxə, Karabuk Zibeydə Hanım İl Halk Kütübhanesinə -27nüsxə, Kemal Tahir Çoçuk Etüt Mərkəzinə -27nüsxə, Fazil Hüsnü Dağlarca Çoçuk Etüt Mərkəzinə -27nüsxə, Cemal Süreyya Çoçuk Mərkəzi, Bedri Rahmi Eyuboğlu Çoçuk Etüt Mərkəzinə - 27nüsxə, Krım tatar Kitabxanasına -25 nüsxə kitab hədiyyə verilmişdir.

Kitabxananın elmi metodika şöbəsi uşaq və kənd kitabxanalarına daim metodik köməklik göstərmiş, kitabxanalarda rəy sorğuları keçirmiş, zona seminar müşavirələri təşkil etmişdir. Metodiki vəsaitlər kitabxananın veb saytında əks olunur və bütün kitabxanalara göndərilir. Həmçinin aktual mövzularda yazılar "Mədəni həyat", "Kitabxanaşünaslıq və informasiya" jurnallarında dərc edilərək öz oxucularına çatdırılır.

**Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının son üç ildə (2009-2011-ci illər üzrə) fəaliyyəti ilə bağlı arayış**

| illər üzrə | Kitabxananın fondu | oxucu | Gəliş | Kitab verilişi |
|---|---|---|---|---|
| 2009 | 237701 | 18750 | 168300 | 391422 |
| 2010 | 245996 | 17520 | 116120 | 314675 |
| 2011 | 249830 | 17850 | 116970 | 348960 |

**2012- ci il İdman ili** ilə əlaqədar “İdman bizim dostumuzdur” metodik vəsait; “ Uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi. Multimedia zalının təşkili” metodik vəsait; “Kitabxana fondlarının öyrənilməsi, mühahizəsi və istifadə edilməsi ” metodik vəsait; “Kitabxana, mütaliə və oxucu” (İon Kreanqa adına Moldova Milli Uşaq Kitabxanasının iş təcrübəsi əsasında yazılmış elmi-tədqiqat işi və “Müasir uşaq kitabxanalarının vəzifələri” (Rusiya Dövlət Uşaq Kitabxanasının iş təcrübəsi əsasında yazılmış elmi-tədqiqat işi), “Uşaq kitabxanalarında diyarşünaslıq ədəbiyyatının təbliği” metodik vəsaitləri, 5 cənub rayonu üzrə təşkil olunmuş (Cəlilabad, Masallı, Lerik, Yardımlı, Astara) “Uşaq Kitabı karvanı cənub bölgəsində” tədbirdə metodistlərin iştirakı; Londonda keçirilən Beynəlxalq Uşaq Kitabı Şurasının 33-cü konqresində iştirak; 2012- Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə “Kitabxanalar üçün informasiya texnologiyaları, kompüter sistemləri və nəşriyyat məhsulları” adlı 16-cı Beynəlxalq konfrans və sərgi- LİBCOM-2012 . Moskva şəhəri Rusiya Dövlət Uşaq Kitabxanasına elmi ezamiyyə olunmuş və “Müasir uşaq kitabxanalarının vəzifələri” elmi-tədqiqat işi yazılmışdır. Eyni zamanda A.Qaydar adına Moskva şəhəri Uşaq Kitabxanası, M.A.Svetlov adına Moskva şəhər Gəclər kitabxanası və “Dom Loseva” kitabxanalarının iş təcrübəsi ilə tanış olmuşlar. “Uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi.



**2013- cü il**

İxtisasla bağlı təşkil olunmuş kurslarda, seminarlarda iştirak etmiş; respublika uşaq kitabxanalarının iş fəaliyyətini öyrənmək məqsədilə monitorinqlərin keçirilmiş; rayon uşaq kitabxanaları tərəfindən göndərilən mətn və statistik hesabatları təhlil edilib, rəy yazılmış; “Mütaliə problemləri” mövzusunda konfrans keçirilmiş; “Uşaq ədəbiyyatı nümunələri” mövzusunda uşaq yazıçı və şairləri ilə dəyirmi masa təşkil edilmişdir.

**Göy qurşağı jurnalımız**









Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi “Göyqurşağı” Uşaq Jurnalı (2006-cı il mart 2007-ci ilin oktyabr ayına kimi

“Körpəm” adı ilə nəşr olunmuşdur) məktəblilərin dünyagörüşünün inkişafında, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsində, təhsilə marağın artmasında böyük rol oynamaqla daim diqqət mərkəzində olmuşdur. 32 səhifədən ibarət rəngli şəkillərlə nəfis tərtib olunan bu jurnalın hər sayı uşaqlar tərəfindən maraqla qarşılanır. Jurnalın hər sayında əlamətdar tarixi günlər, bayramlar, tarixi və görkəmli şəxsiyyətlər, təhsil müəssisələri haqqında məlumatlar, uşaqların qələmə aldıqları şeir və hekayələr, çəkdikləri rəsmlər dərc olunur. Jurnalda kitabxanaya daxil olan yeni kitablar haqqında oxuculara müntəzəm məlumat verilir. Uşaqların intellektual səviyyələrinin atrıtılmasına xidmət edən məntiqi suallarla zəngin əyləncəli səhifə və rubrikalar jurnalı daha da maraqlı edir. “Göyqurşağı” Uşaq Jurnalı Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə Azərbaycanın bütün rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemi vasitəsilə ən ucqar dağ kəndlərinə belə yayılır. Kitabxananın təsis etdiyi “Göy qurşağı” jurnalında valideynlər üçün guşədə “Uşaqlarınızı mütaliəyə necə cəlb edə bilərsiniz” adı altında mütaliəyə cəlb etməyin yolları açıqlanmışdır. Gurnalda Uşaq yazıçı və şairlərindən Ələmdar Quluzadə, Zahid Xəlil, Rafiq Yusifoğlu, Solmaz Amanova, Fikrət Sadıq, Gülzar İbrahimova, Nəriman Həsənzadə, Sevinc Nuruqızı ilə maraqlı, yaddaqalan tədbirlər, Kitab bayramları, milli uşaq kitabı sərgisi, kitab festivalllarında təşkil olunan sərgilər, viktorinalar, müsabiqələr, teatr tamaşaları işıqlandırılmışdır. Jurnalımızdan istifadə etməklə uşaqların dünyagörüşü zənginləşmiş, kitabxanaya, kitaba marağı daha da artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 6 oktyabr 2008-ci il tarixli “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkışafı üzrə Dövlət Proqramı” nın təsdiq edilməsi barədə sərəncamı- kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verdi. Dövlət Proqramında oxucuların inforamasiya tələbatının ödənilməsi ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanası artıq neçə illərdir ki, Uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini - “Uşaq kitab Karvanı” layihəsini uğurla həyata keçirir.





3 il ərzində (2011-2013) keçirilən layihə üzrə 16 rayona Kitab Karvanı yola düşmüş, 14270 nüsxə uşaq kitabları hədiyyə edilmişdir. F. Köçərli adına

Respublika Uşaq Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş "Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə" adlı yarışma keçirəcəyini elan etdi. Səkkiz uşaq evi və internat səsimizə səs verdi. Onlar Yaponiya, Britaniya, Türkiyə, Hindistan, Rusiya, Amerika, Gürcüstan, Koreya dövlətlərini təmsil etməli idilər. İştirakçılar 6 nominasiya üzrə yarışırdılar: Təmsil etdikləri dövlət barədə təqdimat slaydlarını, milli rəqs, milli geyim nümunələri göstərmək, kitab sərgiləri təşkil etmək, milli gəlinciklər və ya applikasiyalar hazırlamaq, bir də nağıl qəhrəmanlarından bir və ya ikisini təqdim etmək. Hər bir məktəb təmsil etdiyi ölkənin haqqında maraqlı videoçarx hazırlamışdı. Slaydda təmsil olunan dövlətin tarixindən, Azərbaycan Respublikası ilə əlaqələrindən , inkişafından, milli adət - ənənələrindən, təbiətindən, şəhərlərindən. heyvanlar aləmindən , bu ölkədə yaşayan uşaqların həyatından çox gözəl məlumatlar toplanmışdı.



15 sentyabr F. Köçərli adına kitabxana Bilik günü və Sülh aylığı çərçivəsində Nəsimi rayonunda yerləşən Koala parkında "Şən, əyləncəli mütaliə" adlı tədbir keçirdi. Koala parkı "Bilikdən nur alıram mən", "Oxuya bilirsənsə hər insan bir kitabdır", "Bilik sərhədsiz bir dənizdir", "Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər", "Biliyə aparan yeganə yol – mütaliədir","Hərəmiz günəşin bir zərrəsiyik","Gəlin xarici dilləri öyrənək" adlı görkəmli adamların biliklə bağlı söylədikləri müdrik sözlər yazılmış plakatlar, "Kitablar mənəvi sərvətimizdir" adlı şüar və şarlarla bəzədilmişdi. Tədbiri keçirməkdə məqsəd uşaqların kitaba, kitabxanaya olan maraqlarını artırmaq , mütaliəsini təşkil etmək onları tolerant olmağa çağırmaq idi.



Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası 23-25 sentyabr 2013-cü ildə ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak etdi. Sərgidə aşağıdakı başlıqlar altında son illərdə nəşr olunmuş uşaq kitabları nümayiş olunurdu: "Nağıllar aləmində", "Sirli-sehrli nağıllar",

"Sizin sevimli yazıçılarınız", "Azərbaycan – yurdum mənim", "Kitablarda mən hələ, baxıram şəkillərə...", "Gəlin çoxlu dil öyrənək", "Nənələrin boxçasından", "Biri var idi, biri yox idi" və s. Sərginin açılışı münasibətilə F.Köçərli adına Respublika Uşaq kitabxanası öz oxucularının, nağılqəhrəmanlarının timsalında təqdim olundu.




22 may 2014-cü il tarixində Beynəlxalq Muğam Mərkəzində F.Köçərli adına Respublika Uşaq Kitabxanası Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Respublika Təhsil Nazirliyi və Bakı şəhəri Təhsil İdarəsinin tabeliyində olan Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzləri arasında 22 may biomüxtəliflik gününə həsr olunmuş "Dünyanın mədəniyyət rəngləri" adlı yarışma keçirdi.





Yarışmada Böyük Britaniya, Türkiyə, Hindistan, Rusiya, Gürcüstan, Tatarıstan, İran, Yunanıstan, Hollandiya, Özbəkistan, İtaliya, İspaniya dövlətləri təmsil olunurdu. Yarışma 5 nominasiya üzrə nəzərdə tutulmuşdur:

1. Müxtəlif dövlətlərə mənsub kuklaların (əl işlərinin) sərgidə nümayişi;
2. Həmin kuklalara milli geyimlərin düzgün seçilməsi;
3. Həmin dövlətə məxsus şirma formasında nağılın təqdimatı;
4. Çarxlı video slaydın mükəmməlliyi;
5. Milli geyimdə həmin xalqın rəqsinin təqdimatı (5-7 dəq.)

F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildən mötəbər bir təşkilatın- Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür.





Atrıq iki ildir ki, həmin təşkilatla sıx əlaqə saxlayır, keçirilən sərgilərdə, konqresdə iştirak edirlər. Təşkilata üzv olmaqda əsas məqsəd Azərbaycanda uşaq yazıçıları, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq və uşaq ədəbiyyatı sahəsində olan yenilikləri tətbiq etməklə uşaqların mütaliəyə olan həvəslərini artırmaq, onları dünya uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir.

Konqresdə uşaq yazıçımız Qəşəm İsabəyliyə "Cin" uşaq əsərinə və nəşriyyat olaraq "Şirvannəşr"ə sertifikat, Sevinc Nuruqızına isə diplom verildi. Həmin diplom və sertifikatı Şəhla Qəmbərova yazıçılara təntənəli şəkildə təqdim etdi.




Dövlət Proqramında oxucuların inforamasiya tələbatının ödənilməsi ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanası artıq neçə illərdir ki, Uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini - "Uşaq kitab Karvanı" layihəsini uğurla həyata keçirir. 3 il ərzində (2011-2013) keçirilən layihə üzrə 16 rayona Kitab Karvanı yola düşmüş, 14270 nüsxə uşaq kitabları hədiyyə edilmişdir.
F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildən mötəbər bir təşkilatın- Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Atrıq iki ildir ki, həmin təşkilatla sıx əlaqə saxlayır, keçirilən sərgilərdə, konqresdə iştirak edirlər. Təşkilata üzv olmaqda əsas məqsəd Azərbaycanda uşaq yazıçıları, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq və uşaq ədəbiyyatı sahəsində olan yenilikləri tətbiq etməklə uşaqların mütaliəyə olan həvəslərini artırmaq, onları dünya uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir.

**2014 – cü il**

2014 -cü ildə F.Köçərli adına Dövlət Uşaq Kitabxanasının elmi-metodika şöbəsi Azərbaycan Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-

cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı əsas tutaraq və iş planına uyğun fəaliyyət göstərmiş, üzərinə düşən vəzifələri yerinə yetirmişdir. F.Köçərli adına RUK-sı respublika rayon uşaq kitabxanalarına əməli və metodiki köməklik göstərmək məqsədilə ezamiyyələr təşkil etmiş, onların iş fəaliyyətləri ilə tanış olmuşdur. 2014 - cü ildə Elmi- metodika şöbəsi kitabxanalarda rəy sorğuları keçirmiş, zona seminar müşavirələri təşkil etmişdir. Şöbənin hazırladığı metodiki vəsaitlər kitabxananın veb saytında əks olunmuş və bütün kitabxanalara göndərilmişdir. Bu il ərzində F. Köçərli adına RUK- sının il ərzində iş rejiminə nəzər salaq:

a) ixtisasla bağlı təşkil olunmuş kurslarda, seminarlarda iştirak edilmiş;

b) respublika uşaq kitabxanalarının iş fəaliyyətini öyrənmək məqsədilə monitorinqlər keçirilmiş;

c) rayon uşaq kitabxanaları tərəfindən göndərilən mətn və statistik hesabatları təhlil edilib, rəy yazılmış;

ç) "Mütaliə problemləri" mövzusunda konfrans keçirilmiş;

d) "Uşaq ədəbiyyatı nümunələri" mövzusunda uşaq yazıçı və şairləri ilə dəyirmi masa təşkil edilmiş;

e) mütaliənin gücləndirilməsi işi ilə bağlı seminarlar (zonalar üzrə) təşkil edilmişdir.

Həmçinin aktual mövzularda yazılar "Mədəni həyat", "Kitabxanaşünaslıq və informasiya" jurnallarında dərc edilərək öz oxucularına çatdırılmışdır. **"Müasir uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi"** mövzusunda kitabxana işçiləri və oxucular arasında tədqiqat xarakterli rəy sorğusu da təşkil olunmuşdur. Elmi metodika şöbəsi 50 illik fəaliyyəti dövründə **"Bilmək istəyirik ki...** tədqiqat xarakterli rəy sorğusu, "**Vətənpərvər kimdir?"** mövzusunda rəy sorğusu, **Müasir uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi"** mövzusunda kitabxana işçiləri arasında tədqiqat xarakterli rəy sorğusu, **"Uşaq yazarları necə olmalıdır"** mövzusunda rəy sorğusu, **"Mütaliəyə rəhbərlik edənlərin informasiyaya olan tələbatı" mövzusunda** üçün rəy sorğusu **,"Oxucu və kitabxana "** oxucuların informasiya tələbatını öyrənmək məqsədilə keçirilən rəy sorğusu **"Mütaliə və müasir kitabxana"** mövzusunda rəy sorğusu, **"Uşaqlara və uşaq mütaliəsinə rəhbərlik edənlərə uşaq kitabxanasında kitabxana xidməti"** mövzusunda rəy soğusu keçirmişdir. Həmin rəy sorğulardan bir neçəsinin nümunəsini sizlərə təqdim edirk:

**Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Tədbirlər Planının 2.4.1 bəndində respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatı probleminin həlli məqsədilə monitorinqin keçirilməsi və icrası ilə əlaqədar respublikada fəaliyyət göstərən uşaq kitabxanaları üzrə**

# Rəy sorğusu

"Uşaqlara və uşaq mütaliəsinə rəhbərlik edənlərə uşaq kitabxanasında kitabxana xidməti"

______________________________________________ 2011-ci il

**Şəhər, rayon**
**(uşaq kitabxaasında doldurulmalıdır)**

1. 2011-ci il üzrə rayonda uşaqlara kitabxana xidməti (cədvəl doldurulur: ____________________________ rayon və ya şəhərin "Kitabxanada uşaqlarla işlə bağlı məlumat" əsasında)
2. Kitabxananın maddi-texniki bazası haqqında məlumat
3. Uşaq kitabxanasının kadrları (cədvəldə göstərmək)
4. Uşaq kitabxanasının fondu
   - Kitabların alınması (komplektləşmənin mənbələri, 2011-ci il ərzində daxil olan uşaq ədəbiyyatının sayı, ad üzrə daxil olan ədəbiyyat)
   - Həmin illər ərzində rayon uşaq kitabxanasına daxil olan dövrü mətbuatın sayı
   - Kitabxana fondunun öyrənilməsi (çıxarılan kitablar, mühafizəyə ehtiyacı olan kitablar, latın qrafikası ilə çapa ehtoyacı olan kitablar )
5. İctimai təşkilatlarla kitabxananın əlaqəsi. Oxucu marağının öyrənilməsi. Reklam xarakterli işlər.
6. Məlumat-biblioqrafiya işi.
   - Uşaq oxucuları və uşaqların mütaliəsinə rəhbərlik edənlər üçün məlumat- biblioqrafiya aparatının təşkili
   - İl ərzində tərtib olunmuş ədəbiyyat siyahıları. Şirma kataloqlar. Mövzu kartotekaları və s.
   - Rədd cavablarının sayı. Ödənilmiş biblioqrafik arayışların sayı.
   - Uşaqlarla keçirilən tədbirlərdə təşkil olunmuş sərgilərin sayı. Sərgi qarşısında söhbət.
7. Uşaq kitabxanasının metodiki fəaliyyəti:
   - Filiallara gediş (sayı, məqsədi, metodik köməklik)

- Seminar, təcrübə, məşğələlərin keçirilməsi.
- Yaxşı işləyən filialların iş təcrübəsinin digər filiallar arasında təbliği (yerli radio, televiziya verilişlərində və qəzetlərdə məlumat vermək)

8. Metodiki fəaliyyətin daha da yaxşı olması ilə bağlım təklifləriniz: keçirmək istədiyiniz aktual mövzularda seminarlar, məşğələlər və s. Yaxın vaxtlarda hansı mövzuda zona üzrə seminar-müşavirənin keçirilməsini vacib sanırsınız?

**4 noyabr - 8 noyabr tarixində Uşaq kitab Karvanı – Şirvan yolunda" başlığı altında "Mütaliə və müasir kitabxana" mövzusunda Hacıqabul, Şirvan, Saatlı, İmişli, Beyləqan rayonlarında yerləşən kitabxanalar üzrə 150 nəfər oxucu arasında rəy sorgusunun analizinin nəticələri**

1. İnformasiyanı daha çox hardan əldə etmək sizin üçün rahatdır?
a) kitabxanadan- 53
b) məktəbdən- 27
c) internetdən- 36
d)televiziyadan- 34

2. Mütaliə deyəndə nə başa düşürsünüz?
a) müəllim tapşırıqları əsasında dərs materiallarını oxumaq- 38
b) öz dünyagörüşünü artırmaq məqsədilə ədəbiyyat oxumaq- 41
c) nitq inkişafını artırmaq məqsədilə ədəbiyyat oxumaq- 39
d) kitab oxumağa vərdiş etmək- 32

3. Müasir kitabxana nə deməkdir?
a) istirahət yeri - 20
b) qiraət evi - 59
c) məktəb proqramı ilə bağlı dərs tapşırıqlarını yerinə yetirmək üçün müəssisə - 46
d) internet zal- 15

4. Ən çox müraciət etdiyiniz sorğu?
a) tarixi mövzularla bağlı- 38
b) bədii ədəbiyyat- 65
c) elmi ədəbiyyat- 27
d) incəsənətlə əlaqədar mövzular- 20

5. Sənin marağın daha çox nəyədir?
a) mütaliəyə- 54
b) internetə- 49
c) tədbirlərə- 35
d) heç nəyə- 12

6. İnformasiyanı daha çox hansı mənbədən alırsınız?
a) CD, DVD disklərdən- 13
b) Kitabdan- 69
c) audio, video kasetlərdən- 28

d) internetdən- 40

7. İnformasiya texnologiyasına münasibətiniz?

a) yaxşı- 119
b) pis- 12
c) bilmirəm- 19

2014 –cü il ərzində Əli bəy Hüseynzadənin 150 illik yubileyi münasibəti, Ölkəşünaslıq ədəbiyyatının Uşaq Kitabxanalarında təbliği mövzusunda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən M. Ə. Rəsulzadənin 130 illik yubileyi münasibəti ilə, Qasım bəy Zakirin anadan olmasının 230 illiyi münasibəti ilə, Mənəvi irsimizi qoruyaq, nəsillərə çatdıraq mövzusunda,Yetkinlik yaşına çatmamış uşaqlarla cinayətkarlığa qarşı mübarizə üsulları mövzusunda, Biomüxtəliflik günü "Dünyanın mədəniyyət rəngləri" mövzusunda, Mənəvi, əxlaqi və hüquqi tərbiyə:problemlərin həllində uşaq kitabxanalarının iş təcrübəsi mövzusunda, şair Teymur Elçinin anadan olmasının 90 illiyi münasibəti ilə, şair, dramaturq Zeynal Xəlilin anadan olmasının 100 illiyi münasibəti ilə, dramaturq, yazıçı Nəcəf bəy Vəzirovun anadan olmasının160 illiyi `münasibəti ilə, yazıçı Qılman İlkinin anadan olmasının 100 illiyi (1914) münasibəti ilə, Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibəti ilə, şair İlyas Tapdığın anadan olmasının 80 illiyi (1934) münasibəti ilə, şair Nəbi Xəzrinin 90 illik yubileyi münasibəti ilə, F. Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinin müasir vəziyyəti və inkişaf perspektivləri və s. mövzularda metodiki vəsaitlər işlənib, rayonlara göndərilmişdir.

Bu gün Uşaq hüquqlarının müdafiəsi məsələsi daima dövlətimizin diqqət mərkəzindədir və bu problem həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. Uşaqları maarifləndirmək, onları öz hüquqları barədə daha ətraflı məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Bu məqsədlə Elmi metodika şöbəsi uşaq kitabxanaçılarına kömək məqsədilə "Uşaq kitabxanalarında uşaq hüquqlarının təbliği" adlı vəsait hazırlamış və respublika uşaq kitabxanalarına göndərmişdir. Bundan əlavə kitabxanamızda "Beynəlxalq uşaq hüquqlarının müdafiəsi" ilə bağlı keçirilən bir sıra tədbirlərdə uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək etmişdir. Elmi-metodika şöbəsi ezamiyyələr təşkil edərək rayon uşaq kitabxanaılarında uşaq hüquqlarını təbliği haqqında kitabxanaçılara sərgilərin təşkilində, mövzu ilə əlaqədar keçirilən tədbirlərin hazırlanmasına da öz köməkliyini əsirgəməmişdir.

Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək

etməkdən ibarət olmuşdur. F. Köçərli ad. RUK-nın Məlumat-biblioqrafiya şöbəsi bu sahədə bir sıra işlər görmüşdür. "Uşaq ili" ilə əlaqədar "Uşaqlara dövlət qayğısı" adlı ədəbiyyat siyahısı hazırlayıb rayon kitabxanalarına göndərmişdir ki, rayon kitabxanalarında bu siyahı əsasında kartoteka qutusu hazırlansın və kartoteka qutusu kitabxananın gələcəkdə əldə edəcəyi materiallarla zənginləşdirilsin. Bu siyahıda ədəbiyyatla yanaşı həm də uşaqlara dair müdrik sözlər də öz əksini tapmışdır. Bundan əlavə həmin informasiya guşəsini materialla zənginləşdirmək məqsədilə uşaqlara dair hüquqi sənədlər ("Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu", "Uşaq hüquqları Konvensiyası", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu", "Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu", "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu" və s.) əlavə edilmişdir. Daha sonra şöbə narkomaniya ilə mübarizə sahəsində "Sağlam həyat tərzi keçirək" adlı ədəbiyyat siyahısı hazırlayaraq müvafiq hüquqi sənədlərin ("Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu") müşaiyəti ilə Xaçmaz, Yardımlı, Şirvan, Kürdəmir, Quba, Şəmkir, Tovuz rayonlarına göndərmuşdir. Kitabxana işçiləri üçün Uşaq Hüquqları ilə bağlı treninq mühazirə keçirilmişdir.

Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək etməkdən ibarət olmuşdur. Kitabxanamız Azərbaycanda fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz olmaqla Azərbaycan uşaq ədəbiyyatının, çap məhsullarının saxlayıcısı hesab olunur. Bu məqsədlə saytımızda(www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılır. Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. Bunlardan "Milli dəyərlərimizi qoruyaq – Nağıllarımızı yaşadaq", hər il 2 aprel Beynəlxalq Uşaq kitabı günündə Milli Uşaq kitabları sərgilərinin təşkili, uşaq kitabı bayramlarının keçirilməsi, Beynəlxalq Novruz bayramının digər ölkələrin uşaq kitabxanalarında tanıdılması məqsədilə telekörpülərin təşkili, xarici ölkə kitabxanalarında Azərbaycan uşaq ədəbiyyatı fondunun yaradılması və s. göstərmək olar.

Avtomatlaşdırma şöbəsinin inkişaf etməsi və səyi nəticəsində şöbələrarası əlaqələri təmin edən lokal kompüter şəbəkəsi yaranmış və avtomatlaşdırılmış İnformasiya sisteminin tətbiqi istiqamətində bir sıra vacib işlər görülmüşdür. Hazırda şöbə fonddan daha çox istifadə edilən, sorğu tələb edən kitabların və qəzet, jurnal məqalələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun tam yaradılması prosesini müvəffəqiyyətlə həyata keçirir. Elektron kataloqda kitabların, elektron kartotekada qəzet, jurnlal və

kitabiçi məqalələrin təsviri verilmişdir. Kitab fondunda olan xüsusi əhəmiyyətli və oxucular tərəfindən soruşulan kitabların(74)tammətni hazırlanaraq rəqəmli daşıyıcılara köçürülmüş və saytda elektron kitablarda yerləşdirilmişdir. Retro bazasında isə kiril qrafikasında olan azərbaycan dilində kitablar daxil edilmiş və hazırda bu iş davam edir. Bu ilin sonuna qədər kitabxananın bütün fondunun elektron kataloqda əks etdirilməsi qarşıda duran məsələlərdəndir. Bəli, bu gün F. Köçərli adına Respublika Uşaq kitabxanası respublikanın mədəni həyatında fəal iş aparır. Xalq cümhuriyyətinin yaranması, Dövlət bayrağı günü, müstəqillik günü, ulu öndərimizin doğum günü, 20 yanvar və Xocalı faciəsi , 31 mart soyqırımı günü, dünya Azərbaycanlılarının həmrəylik günü və s. bu kimi tarixlər xüsusi qeyd olunmaqla uşaqlar və yeniyetmələr arasında maraqlı işlər aparılır. Veb-saytımızda (clb.az) kitabxanamızda yaranan hüquq informasiya mərkəzi ilə əlaqadar saytımızın menyusunda hüquq rubrikası açılmış, həmin rubrikada qanunlar, beynəlxalq sənədlər, uşaq hüquqları konvensiyasının materialları, uşaq hüquqları ilə bağlı xülasələr, uşaqlar üçün maraq doğuracaq təqdimatlar-slaydlar, qaynar xətt telefon nömrələri və s. verilmişdir. Saytımızın "Kitab abidələri" rubrikası üzrə kitabxana fondunda olan ən qədim kitabların (1927-1960) siyahısı Power Point proqramında hazırlanmış və kitabxananın elektron saytında yerləşdirilmişdir. 2012-ci ildə həmin kitabların Tammətnli verilənlər bazasında yerləşdirilməsi, elektron sənədlərin toplu kataloqunda uşaq dövrü mətbuat sənədlərinin işlənməsi nəzərdə tutulmuşdur.

Son illərdə kitabxanamız İFLA, Krım, Anapa, Lipetsk beynəlxalq konfranslarda iştirak etmişdir. Bir çox dövlətlərlə daha sıx əlaqə yaranmışdır: İon Kryange adına Moldova Milli Uşaq Kitabxanası, Ukrayna Milli Uşaq Kitabxanası, Belarusiya, Türkiyə, və s.

Kitabxanamızda "Kitab.Dünya.Uşaq" adlı dəyirmi masa keçirilmişdir. Tədbirin keçirilməsində əsas məqsəd uşaq yazarlarını, rəssamlar və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltməklə, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq, dünya arenasına çıxmaqdır. Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin müdiri Vaqif Bəhmənli, uşaq ədəbiyyatı nəşr edən bir çox nəşriyyatların (Altun, Turan, Çinar-Çap, Çaşıoğlu, Təhsil, Beşik ) əməkdaşları , uşaq yazıçılarından, İlyas Tapdıq, Zahid Xəlil, Sevinc Nuruqızı, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Qəşəm İsabəyli, Gülzar İbrahimova, Gülarə Munis, Solmaz Amanova, Oqtay Rza iştirak edirdi. Çıxışlarda ən yaxşı maraqlı mövzuda 3-4 yaşlı uşaqlar üçün hissiyyatlı, musiqili, oyuncaq kitabların nəşrinə ehtiyac olmasından danışılmış, təklif olunmuşdur ki, ildə iki dəfə nəşriyyatlarla uşaq kitablarının tərtibatı, keyfiyyətli nəşri ilə bağlı müzakirə, dəyirmi masa təşkil edilsin.



Hər il yubilyar uşaq yazıçılarımız kitabxanamızda xususi qeyd olunur. Il ərzində ayda bir dəfə uşaq yazıçılarından biri ilə oxucuların görüşü təşkil olunur. Belə görüşlərdə uşaqlar öz yazıçılarını tanımaqla yanaşı, müəlliflər də oxucuların mütaliə marağını öyrənir.

Kitabxanada kiçik yaşlı uşaqlar üçün "Biləyən" Multi-media zalı, Nağıl otağı fəaliyyət göstərir. Burada uşaqlar mütaliə etməklə yanaşı asudə vaxtlarını daha səmərəli keçirir, nağıllara qulaq asır, istirahət edirlər.

Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur. Azərbaycan xalqı da həmişə bu istəklə yaşamışdır. 1991-ci il oktyabrın 18-də respublikanın qanunvericilik orqanı parlament Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və bununla da respublikamızın müstəqilliyi bərpa olundu. Həmin vaxtdan bəri 24 ildir ki, xalqımız azad yaşayır, öz milli dövlətini möhkəmlədərək inkişaf edir. Qısa müddətdə müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan prezidentimiz İlham Əliyev Azərbaycanda kitabxana işinin inkişafına da öz töhfələrini vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın Tədbirlər Planının 2.4.1 bəndində respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatı probleminin həlli məqsədilə uşaq və məktəb kitabxanaları, Azərbaycanın 11 rayonunun mərkəzi, uşaq və kənd kitabxanalarında monitorinqlər keçirildi. Bunu keçirməkdə əsas məqsəd uşaqların mütaliəyə cəlb olunması ilə bağlı qarşıda duran problem məsələlərin aradan qaldırılması və həlli istiqamətində mütəxəssis rəylərinin bir araya gəlməsi idi. Monitorinqin nəticələri Bakı şəhər uşaq və məktəb kitabxanaçıları üçün keçirilən "Kitabxanaya uşaqların cəlbi: Mütaliə haqqında düşüncələr" mövzusunda elmi konfransda açıqlanmış, kitabxanaçıların müraciəti qəbul edilmişdir.

Uşaq kitabxanaları gənc nəslin tərbiyəsində misilsiz təsir qüvvəsinə malikdir. Gənc nəslin tərbiyəsi və mütaliəsi ilə məşğul olan hər bir kitabxanaçı işini elə qurmalıdır ki, yetişən hər bir gənci dövrün tələbinə cavab verə biləcək və bir səviyyəyə çatdıra, bilik və bacarıqlara yiyələndirə bilsin.. Uşaqların savadlı, zəhmətsevər, ağıllı və sağlam yetişməsində kitabxanalar da eyni dərəcədə maraqlıdır. Nəticə olaraq qeyd etmək

istəyirəm ki, kitabxanaların elektron formasına keçməsi yüksək inkişaf göstəricilərindən biridir. Bu gün internetin xidmət şəbəkələrinin genişliyi təkcə iqtisadi deyil, mədəni sahənin də elektronlaşdırılmasını zəruri edib. Deməliyik ki, milli-mənəvi dəyərlərimizin təkcə qorunub gələcək nəsillərə çatdırılmasında deyil, eyni zamanda, onların beynəlxalq aləmə qısa vaxt ərzində təqdim edilməsində elektron kitabxanaların böyük rolu vardır. Kitabxana mütəxəssisləri belə düşünürlər ki, kitabxanaların metodik təminatı, metodiki köməklik, metodiki yardım olduqca vacibdir. Hazırda kitabxana yeniliklərinin həddindən çox artması və onların kitabxana rəhbərlərinin qarşısında çox mühüm bir vəzifə kimi durması ciddi və yeni tədbirlərin həyata keçirilməsini tələb edir. Həmçinin idarəetmənin konseptual, iqtisadi, marketinq, sosioloji, psixoloji tərəflərini, həmçinin, idarəetmənin xüsusi forma və metodlarının, kitabxana işinin metodik vasitələrinin metodik təminatın fəaliyyətinə olduqca böyük təsiri vardır. Ona görə ki, kitabxanalarda metodiki fəaliyyətə çox mühüm tələblər qoyulur və bu tələblər professional düşüncəyə görə birmənalı olaraq yenilik xarakteri daşıyır. İndiki zamanda "metodiki iş" nəzərə çarpan dərəcədə genişlənmiş, əhatə dairəsi və tətbiqi xeyli zənginləşdirilmiş, müxtəlif istiqamətlərdə yeni funksiya və istiqamətləri özündə əks etdirmişdir. Metodik fəaliyyətin spesifik cəhətləri, yəni ənənəvi prinsipləri, xüsusilə təşkilati, informasiya, tədqiqat və pedaqoji funksiyaları artıq öz forma və üsullarını dəyişmiş, yeni və müasir cəhətlər kəsb etmişdir. Artıq dünyanın kitabxanaşünas alimləri, təcrübi kitabxana işçiləri kitabxana işinin metodik təminatında yeniliklərin tətbiqi ilə bağlı yeniləşmə prosesinin dünya təcrübəsinə əsaslanan yeniliklərlə əlaqəli inkişafına ciddi cəhd göstərirlər. Bununla bağlı müxtəlif ölkələrin aparıcı kitabxanalarında məqsədli konsepsiyaların işlənməsi və perspektivli metodiki tədbirlərin həyata keçirilməsi gündəlikdə duran əsas məsələlərdəndir. F. Köçərli adına Respublika Uşaq kitabxanası bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcəkdir. Yəni kompyuter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edirlər.



2015-ci ildə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının 50-illik yubileyi ərəfəsində kitabxananın bütün şöbələrinin qarşısında da xeyli vəzifələr durur. Ümüdvarıq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu vəzifələrin öhdəsindən layiqincə gələcək və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin

nəşr edilməsində, regionun uşaq kitabxanaları üçün metodik təminat sisteminin güclənməsində və kitabxanaçı kadrların səriştəsinin artırılmasında bütün imkanlarından müvəffəqiyyətlə istifadə edəcəkdir. Kitabxanada daim həyat qaynayır, uşaqların dünyagörüşlərinin formalaşması, mütaliəyə cəlb olunması ilə bağlı daha maraqlı işlər keçirilməsi üçün elmi tədqiqat işləri aparılır, sorgular keçiririlir.

Elmi metodika şöbəsi olaraq daim axtarışlar aparır, kitabxana biblioqrafiya işinin daha səmərəli variantını günün tələbləri baxımından həyata keçirmək sahəsində öz işimizi qururuq. Kitabxanamız öz iş prosesini dünya kitabxanları səviyyəsinə çatdırmağa səy göstərir. Bundan sonra da informasiya təminatı istiqamətində faəliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcək.

Ədəbiyyat siyahısı:


1. Sadıqova S. A. F. Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının metodiki və biblioqrafik materialları (1965-1995- ci illər). 1999. 152 s.
2. İsmayılov X. İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemlərinin inkişaf tarixi (1918-2000 ci illər) 2000. 450 s.
3. clb.az
4. Kitabxananın illik mətn hesabatatlarından istifadə olunmuşdur.



**Redaktor: Qəmbərova Şəhla - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edən: Məmmədli Ruhiyyə – F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi-metodika şöbəsinin müdiri**